

**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

29 iyul 2022-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU-nun rektoru Elçin Babayev Türkiyənin Uşak Universitetinin rektoru ilə görüşüb** Səh.4

**BDU və Qazaxıstan universitetləri arasında əlaqələr genişlənir** Səh.4

**Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 53-cü ildönümü qeyd olunub** Səh.4

**BDU-nun rektoru İctimai Nəzarət Şurasının üzvləri ilə görüşüb** Səh.5

**Geologiya fakültəsinin bir qrup professor-müəllim heyəti Filizçay yatağında** Səh.7

**BDU ICESCO-nun Rabatda keçirilən beynəlxalq tədbirinin həmtəşkilatçısıdır** Səh.9

**"TEKNOFEST Azərbaycan"da uğurla iştirak edən BDU komandalarının üzvləri ilə görüş** Səh.11

**"Şuşa ili" çərçivəsində stolüstü tennis üzrə açıq turnir** Səh.16




**"Əkinçi" ilə başlayan müqəddəs missiya** Səh.3



**BDU-nun "Web of Science" bazasında indekslənən daha bir elmi jurnalının təsir əmsalı yüksəlib** Səh.4



**BDU və Mediasiya Şurası arasında əməkdaşlıq memorandumu imzalanıb** Səh.4



**BDU-nun Əqli mülkiyyət hüququ kafedrasının Əqli Mülkiyyət Agentliyində filialı yaradılıb** Səh.6



**Mədəniyyət Nazirliyi və BDU-nun "Mədəni gənclik" layihəsinin ilk mərhələsi yekunlaşıb** Səh.11



## Tənəzzüldən tərəqqiyə, intibaha aparan böyük tarix

***53 il öncə iyulun 14-də Ulu öndər Heydər Əliyevin doğma xalqına, Vətəninə, Azərbaycan dövlətinə həsr olunmuş ömür yolunda yeni, daha məhsuldar, çoxsahəli, qaynar fəaliyyət dövrü başladı.***

Müasir tariximizin 53 ildən artıq bir mərhələsi, o cümlədən müstəqil Azərbaycan dövlətinin formalaşması, dinamik inkişafı və dünya inteqrasiya sisteminə qoşulması Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dünyanın ən güclü, tanınmış siyasi xadimləri, tələbkar ekspertləri qüdrətli Vətən oğlunu Azərbaycan tarixinin yetirdiyi ən mükəmməl şəxsiyyət, beynəlxalq miqyaslı böyük siyasətçi və dövlət xadimi, fenomen lider kimi səciyyələndirirlər.

XX əsrin 50-60-cı illərində Azərbaycan xalqının gərgin əməyi sayəsində əldə olunan uğurlara, nailiyyətlərə baxmayaraq, bir sıra obyektiv və subyektiv səbəblər üzündən respublika iqtisadiyyatının əksər sahələrində - həm sənayedə, həm də kənd təsərrüfatında gerilik, mənfi hallar, idarəetmədə ciddi nöqsanlar hökm sürürdü. Azərbaycan iqtisadiyyatında yaranan böhran vəziyyəti əhalinin sosial vəziyyətinə mənfi təsir göstərirdi. Korrupsiyaya və rüşvətxorluğa, sui-istifadə hallarına meyllər özünü göstərməyə başlamışdı. Bütövlükdə istehsalın, o cümlədən sənaye məhsulları istehsalının ümumi inkişafı səviyyəsinə, milli gəlirin həcminə və əmək məhsuldarlığının artım sürətinə görə Azərbaycan İttifaq respublikalarından geri qalırdı. Bu vəziyyət pisləşməkdə davam edirdi. Kənd təsərrüfatının bütün sahələrində gerilik getdikcə artırdı.

Elmi-texniki tərəqqinin nailiyyətləri istehsalata, demək olar ki, tətbiq olunmurdu.

70-ci illər Azərbaycanın inkişafında özünəməxsus və spesifik xüsusiyyətləri ilə səciyyələnən bir dövrdür. Sovetlər ölkəsində bu dövrdə durğunluq halları gücləndiyi halda, Azərbaycanda tərəqqi başlamışdı. Ulu öndər Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi dövrdə - 1993 -2003-cü illərdə tariximizin bu dövrünə - 60-cı illərə qiymət verərkən deyirdi: "Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi".

Azərbaycanın düşdüyü bu ağır vəziyyətdə, uzunmüddətli geriliyin hökm sürdüyü, mənfi meyillərin artdığı bir şəraitdə respublika rəhbərliyində mühüm dəyişiklik baş verdi.

1969-cu il iyulun 14-də Heydər Əliyev Azərbaycanda rəhbərliyə gəldi - Azərbaycan KP MK-nın birinci katibi seçildi.

*(Ardı 2-ci səhifədə)*

## BDU-da Hüceyrə kulturası və genom redaktəsi elmi-tədqiqat laboratoriyası yaradılıb

Səh.11

# Tənəzzüldən tərəqqiyə, intibaha aparan böyük tarix

Bununla Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü başladı. Ulu öndər Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə, Kommunist Partiyasının şəriksiz ağalığı dövründə Azərbaycanı Sovetlər İttifaqının ən qabaqcıl respublikalardan birinə çevirmək üçün respublikada sosial-iqtisadi və mədəni quruculuğun, idarəetmənin bütün sahələrini əhatə edən geniş islahatlar proqramı hazırladı. Totalitar sovet rejiminin bütün xüsusiyyətlərinə bələd, zəngin idarəçilik təcrübəsinə malik olan, Mərkəzdə kifayət qədər yaxşı tanınan Heydər Əliyev Azərbaycanı bu ağır, böhranlı vəziyyətdən çıxarmaq üçün düzgün məntiqə, reallığa əsaslanan qəti tədbirlər görməyə başladı.



1969-cu il avqustun 5-də Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-nın plenumu keçirildi. Burada o, Azərbaycanın sosial-iqtisadi böhran vəziyyətinin, uzunmüddətli geriliyin geniş təhlilini verdi, səbəblərini açıqladı və çıxış yollarını müəyyənləşdirdi. Ulu öndər uzaqgörənliklə ölkənin dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırladı və onun icrasını təmin edən tədbirlər gördü.

Dahi lider ilk növbədə mərkəzdəki nüfuzundan istifadə edərək, respublikanın xalq təsərrüfatının inkişaf etdirilməsini təmin etmək üçün Sovet İKP MK və SSRİ Nazirlər Sovetinin iqtisadiyyatın bütün sahələrini əhatə edən aşağıdakı müvafiq qərarlarının qəbul edilməsinə nail oldu:

1) 1970-ci il iyulun 23-də "Azərbaycan SSR Xalq təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında";

2) 1970-ci il iyulun 25-də "Azərbaycan SSR Xalq təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında";

3) 1975-ci il iyulun 9-da "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında";

4) 1976-cı il iyulun 27-də "1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsinin təkliflərinin nəzərdən keçirilməsi nəticələri barədə";

5) 1979-cu il fevralın 22-də "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında".

Onu da qeyd edək ki, bu qərarların yerinə yetirilməsini təmin etmək üçün mərkəzi büdcədən Azərbaycana xeyli vəsait ayrıldı. Həmin vaxtdan da Azərbaycanda tənəzzüldən tərəqqiyə dönüş başladı. Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanda dirçəliş, inkişaf, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünə qayıdışa dönüş mərhələsinin başlanğıcı qoyuldu. 1969-1982-ci illər Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi həyatında intibah dövrü hesab olunur.

Dahi şəxsiyyətin Azərbaycana rəhbərliyə gəlməsi respublikanın digər sahələri kimi, iqtisadiyyatının da dirçəlişi, ölkənin təbii ehtiyatlarından, iqtisadi, təhsil, elm və digər potensialından xalqın maddi-rifah halının yüksəldilməsi üçün şəraitin yaradılması ilə xarakterizə olunur. Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə iqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında ixtisaslaşma, maddi-texniki baza və müasir istehsal sahələrinin yaradılması ilə bağlı kompleks tədbirlər hazırlanıb və həyata keçirilib.

Arxiv sənədlərinin təhlili göstərir ki, 1969-1982-ci illərdə müdrik, zəngin təcrübəyə əsaslanan Heydər Əliyevin rəhbərliyi altında respublika iqtisadiyyatında istehsalın sürəti xeyli artıb, məhsuldarlıq yüksəlib, böyük uğurlar, nailiyyətlər qazanılıb, elmi-texniki tərəqqidə böyük irəliləyişlər baş verib, yeni, müasir istehsal sahələri yaradılıb, əhalinin maddi rifah halı əhəmiyyətli dərəcədə yaxşılaşıb.

Beləliklə, Ulu öndərin çox ciddi, prinsipial iş təcrübəsi sayəsində qeyd olunan qərarların yerinə yetirilməsi ilə respublika iqtisadiyyatında mövcud olan uzunmüddətli geriliyə son qoyuldu. Bu addımlar qüsur və nöqsanların aradan qaldırılmasında, 1970-1982-ci illərdə respublika iqtisadiyyatının intensiv, dinamik inkişafında başlıca rol oynadı.

1969-1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi, təşəbbüsü və gərgin əməyi sayəsində respublikada 25-dən çox zavod, fabrik və digər istehsal müəssisələri, obyektləri istifadəyə verilmiş, 630 min nəfərlik yeni iş yerləri yaradılmışdı. Bu illərdə neft və neft emalı və qazçıxarma sahələrinin inkişafında yeni mərhələ başlamışdı. Təkcə neft hasilatında istehsalın həcmi 2,8 dəfə, maşınqayırma və metal emalında 3,3 dəfə, kimya və neft kimyasında 2,9 dəfə artmışdı. Bütünlükdə sənayedə əmək məhsuldarlığı 1,7 dəfə yüksəlmiş, 4400 yeni növ maşın, cihaz, avadanlıq və digər məmulatlar yaradılmışdı ki, onlardan 400-ü keçmiş SSRİ-də ilk dəfə həyata vəsiqə almışdı.

Ümummilli lider Heydər Əliyev 70-80-ci illərdə neft-kimya sənayesinin inkişafını Azərbaycanın sosial-iqtisadi inkişafında başlıca amil hesab edirdi. Ulu öndərin Azərbaycanda rəhbərliyə gəlməsi ilə 1969-1982-ci illərdə Azərbaycanın iqtisadi strukturunda keyfiyyət dəyişikliklərinə səbəb olan böyük uğurlar əldə edilmişdi. Bu dövrdə respublika sənayesinin yeni sahələri olan elektrotexnika, cihazqayırma, dəzgahqayırma, avtomatlaşdırma kimi yeni istehsal sahələrinin yaradılmasına başlanılmış, Azərbaycan keçmiş Sovetlər Birliyində elektrotexnika sənayesinin ən böyük və əhəmiyyətli mərkəzlərindən birinə çevrilmişdi.

70-80-ci illərdə Azərbaycanın iqtisadi inkişafını təyin edən Bakı məişət kondisionerləri (1975) və Dərin dəniz özülləri (1985) zavodları tikilib istifadəyə verilmişdi. Həmçinin bu illərdə "Azon", "Ulduz" və onlarla digər əhəmiyyətli zavod və fabriklər tikilmişdi.

70-ci illərdə və 80-ci illərin əvvəllərində Heydər Əliyevin titanik əməyi, uzaqgörən siyasəti nəticəsində Azərbaycan xalqı öz iqtisadiyyatını yaratmışdı.

Dahi liderin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə respublika iqtisadiyyatında kənd təsərrüfatının xüsusi çəkisi artmış, onun dinamik inkişafı təmin olunmuşdu. Həmin müddətdə böyük meliorasiya proqramı həyata keçirilmiş, Baş Mil, Abşeron, Lənkəran, Cağar-Cibir, Şəmkir kanalları, Araz, Arpaçay, Sərsəng, Yuxarı Xanbulaqçay və s. su anbarları istifadəyə verilmişdi.

Azərbaycan və SSRİ hökumətlərinin birgə qərarından sonra (1976 və 1979-cu illər) Respublikada üzümçülüyün və şərabçılığın inkişafına xüsusi təkan verildi. Üzüm plantasiyaları 1985-ci ildə 1970-ci ildəkindən 2 dəfə artaraq 268 min hektara çatmışdı.

Ümummilli lider Heydər Əliyevin çox böyük, gərgin fəaliyyətinin nəticəsi olaraq 1981-ci ildə Respublika tarixində ilk dəfə olaraq 1 milyon 151 min ton pambıq, 1 milyon 616 min ton üzüm, 644 min ton tərəvəz və s. kənd təsərrüfatı məhsulları tədarük edilmişdi.

Bütün bunların nəticəsində kənd təsərrüfatının ümumi məhsulunun həcmi 2.6 dəfə çoxalmışdı.

Ulu öndər qeyd edirdi ki, "Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır". Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə elmin, təhsilin inkişafına xüsusi önəm verib. Ötən əsrin 70-ci illərində və 80-ci illərin əvvəllərində ali təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində böyük işlər görülmüşdü. Ulu öndərin təşəbbüsü və qayğısı sayəsində ali məktəblər üçün çoxlu sayda tədris korpusları, yataqxana kompleksləri tikilmişdi. 1970-1980-ci illərdə dahi şəxsiyyət Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı ilə 15 min nəfərdən çox azərbaycanlı gənc keçmiş SSRİ-nin 170-dən artıq nüfuzlu ali məktəbində xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətin 80-dən çox sahəsini əhatə edən 2580-dən çox ixtisas üzrə təhsil almağa göndərilmişdi.

Ulu öndər təbii ki, suveren dövlətçiliyimizin sosial-iqtisadi, ictimai-siyasi, xüsusilə də təhlükəsizlik sahəsində hansı ciddi problemlərlə sınağa çəkiləcəyini əvvəlcədən yaxşı görürdü. Odur ki, Ümummilli lider hələ 70-ci illərdə bu problemlə bağlı məsələlərə diqqət yetirirdi.

Sovetlər dövründə bütün sahələr kimi, ordu quruculuğu prosesi də məlum siyasi-ideoloji prinsiplərə uyğun həyata keçirilirdi. Hərbi kadrlar hazırlayan məktəblər Rusiya, Belarusiya və Ukrayna respublikalarında yerləşirdi. Rəsmi mərkəz - sovet rəhbərliyi müttəfiq respublikalarda, xüsusilə, müsəlman-türk respublikalarında milli hərbi kadrların hazırlanması istiqamətində edilən cəhdlərin qarşısını alır və mane olurdu.

Ulu öndər mərkəzin maneələrinə baxmayaraq, 1973-cü ildə Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılmasına nail oldu. Sovet rejiminin ən güclü vaxtında Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəbin yaradılması Ulu öndər Heydər Əliyev qüdrətinin, yenilməzliyinin, cəsarətinin nəticəsi idi. Bu məktəbin hazırladığı hərbi kadrların əsasında Azərbaycanda Ali Hərbi Komandanlıq, Ali Hərbi Dənizçilik və Ali Hərbi Təyyarəçilik və s. məktəbləri yaradıldı. Beləliklə, Heydər Əliyevin yaratdığı C. Naxçıvanski adına hərbi məktəb müstəqil Azərbaycanda ordu quruculuğu üçün əsas bazalardan birinə çevrildi. 70-ci illərdə həmin məktəbin müdavimləri olan zabitlər artıq müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin komandirləri, generallarıdır. Məhz onlar 44 günlük Vətən Müharibəsində qələbəmizin əsl qəhrəmanlarına çevrildilər.

1991-ci ilin oktyabrında müstəqilliyini bərpa edən Azərbaycan Respublikası real suverenliyinə 1993-cü ilin iyunun 15-də xalqın təkidi və xahişindən sonra Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə nail oldu. Bununla da, Azərbaycanda milli intibahın ikinci mərhələsi (1993-2003-cü illər) başlandı.

Ulu öndər Azərbaycanda intibah dövrünün birinci mərhələsində (1969-1982) əldə edilən uğurları qiymətləndirərək bildirirdi ki, "Əgər 70-ci illərdə yaranmış bu iqtisadiyyat olmasaydı, indi Azərbaycan Respublikası müstəqil yaşaya bilərdimi?".

Heç şübhəsiz ki, müstəqilliyimizin sosial-iqtisadi əsasları o illərdə yaradılıb. Müstəqil Azərbaycan Respublikası həmin iqtisadi baza üzərində dinamik inkişaf edir.

Ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, "Azərbaycan artıq o ölkədir ki, öz torpağının işğalına dözməyəcəkdir. Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib, istədiyinə nail olacaqdır. Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt icazə verməyəcəyik".

44 günlük qələbə münasibəti ilə Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fəxri Xiyabanda tarixi nitqi zamanı demişdir: "Mən bu gün, eyni zamanda, Ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu öndərin ruhu şaddır!".

***İbrahim Zeynalov***
*Tarix fakültəsinin dekanı,*
*tarix elmləri doktoru,*
*professor*

*Aznews.az*
*14 iyul 2022-ci il*

# Azərbaycanın media nümayəndələrinə

***Hörmətli media nümayəndələri!***

***Əziz jurnalistlər!***



Sizi Azərbaycan milli mətbuatının yaranmasının ildönümü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Müstəqillik dövrümüzdə ilk dəfə Azərbaycan jurnalistləri Ermənistanın 30 ilə yaxın davam edən işğalından sonra öz peşə bayramlarını ölkəmizin mədəniyyət paytaxtı, milli mətbuatımızın inkişafında xüsusi yeri olan, Qarabağın tacı Şuşa şəhərində qeyd edirlər. Milli Mətbuat Günü ilə bağlı Şuşada keçirilən ilk tədbir zəngin ənənələrə malik Azərbaycan mediasının tarixində əlamətdar hadisə olacaqdır.

Azərbaycan mətbuatı 1875-ci il iyulun 22-də görkəmli ziyalı, publisist, təbiətşünas alim Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzetinin bəyan etdiyi prinsipləri rəhbər tutaraq böyük inkişaf yolu keçmişdir. XIX əsrin ikinci yarısından sonrakı dövrdə işıq üzü görən çoxsaylı nəşrlər tariximizin güzgüsü olmuş, insanların maariflənməsi, milli şüurun formalaşması, xalqımızın azadlıq amallarının gerçəkləşməsi və mənəvi dəyərlərimizin qorunmasına mühüm töhfələr vermişdir.

XX əsrin sonlarında müstəqilliyini yenidən bərpa etmiş Azərbaycanda xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş demokratik islahatlar bütün sahələrdə olduğu kimi, milli informasiya resurslarının inkişafında da əsaslı dönüş yaratmışdır. Söz və məlumat azadlığının təmin edilməsi, mütərəqqi qanunvericilik bazasının formalaşdırılması, redaksiyaların müstəqilliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlər nəticəsində Azərbaycan mediası sürətli inkişaf mərhələsinə qədəm qoymuşdur.

Kommunikasiya vasitələrinin transformasiya mərhələsini yaşadığı, rəqəmsal platformaların və sosial media alətlərinin öz əhatə dairəsini genişləndirdiyi hazırkı dövrdə milli informasiya resurslarımızın potensialının və qlobal informasiya şəbəkəsində mövqelərinin gücləndirilməsi başlıca vəzifələrdən biridir. Son illər həyata keçirilmiş islahatlar media fəaliyyətinin qanunvericilik bazasının təkmilləşdirilməsi, iqtisadi əsaslarının möhkəmləndirilməsi, jurnalistlərin sosial təminatının yaxşılaşdırılması, dövlətin kommunikasiya siyasətinin müasir dövrün tələblərinə uyğun həyata keçirilməsi, jurnalistika sahəsində çevikliyin, peşəkarlığın yüksəldilməsi, cəmiyyətimizi narahat edən mənfi təzahürlərin aradan qaldırılması, medianın beynəlxalq əlaqələrinin genişləndirilməsi və dost ölkələrlə birgə platformaların yaradılması məqsədi daşımış, bu sahədə nəzərəçarpacaq irəliləyiş əldə edilmişdir.

Azərbaycan Respublikası müstəqil siyasət yürüdən, müasir, güclü, beynəlxalq münasibətlər sistemində layiqli yeri olan dövlətdir. Məhz buna görə qlobal informasiya məkanında ölkəmizin yüksək beynəlxalq nüfuzuna xələl gətirmək, daxili həyatına təsir göstərmək cəhdləri səngimir. Vətən müharibəsi zamanı Azərbaycan mediası informasiya cəbhəsində mübarizə apararaq, kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında, cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında böyük rol oynamışdır. Media resurslarımız Azərbaycan həqiqətlərini, o cümlədən işğal dövründə ermənilərin tarixi torpaqlarımızda törətdikləri misli görünməmiş vəhşilikləri və vandallığı beynəlxalq ictimaiyyətə çatdırmaq üçün fəaliyyətlərini yorulmadan davam etdirirlər.

Vətənpərvərlik, yüksək milli şüur, ali məqsədlər uğrunda cəmiyyətimizin səfərbər olunmasına layiqli töhfələr vermiş Azərbaycan jurnalistləri hər zaman prinsipiallıq nümayiş etdirməli, saxta və yalan məlumatlara söykənən kampaniyaların qlobal səviyyədə vüsət aldığı bir şəraitdə Azərbaycanın dövlətçilik maraqlarını uca tutmalı, vətəndaşlarımızın dolğun və düzgün məlumat əldə etmək hüquqlarını təmin etməli, cəmiyyətimizin tərəqqisi naminə var gücləri ilə çalışmalıdırlar.

Əminəm ki, Azərbaycan jurnalistikası əldə olunmuş uğurların inkişaf etdirilməsi, cəmiyyətimizin davamlı tərəqqisi və xalqımızın xoşbəxt gələcəyi üçün bundan sonra da öz səylərini əsirgəməyəcək.

Bir daha peşə bayramınız münasibətilə sizi təbrik edir, hər birinizə cansağlığı və işlərinizdə uğurlar arzulayıram.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri,*
*22 iyul 2022-ci il.*

*President.az*

# "Əkinçi" ilə başlayan müqəddəs missiya

## *22 iyul cəmiyyətin güzgüsü rolunu oynayan milli mətbuatımızın yaranmasından 147 il ötür.*

***1875-ci ildə görkəmli maarifpərvər, təbiətşünas alim və mütəfəkkir Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzeti ilə əsası qoyulan milli mətbuatımız çətin və şərəfli bir yol keçib.***

"Əkinçi"nin 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 sayı işıq üzü görsə də, o, Azərbaycan milli mətbuatının təşəkkül tapmasında, inkişafında əvəzsiz rol oynayıb. Əsasən maarifçilik missiyasını üzərinə götürmüş "Əkinçi" qısa müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında çox məşhurlaşıb. Lakin "Əkinçi"nin fəaliyyəti uzun olmayıb. Çar Rusiyası qəzetin insanların maariflənməsində, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasındakı rolundan çəkinməyə başlayıb və sonda qəzetin nəşrini dayandırıb.

"Əkinçi" ilə başlayan müqəddəs missiya sonrakı dövrlərdə vətənsevər ziyalılarımızın ərsəyə gətirdiyi digər mətbu orqanlarımız tərəfindən davam etdirilərək xalqımızın milli oyanışında, XX əsrin əvvəllərində istiqlal arzularının gerçəkləşməsində misilsiz rol oynayıb.

Milli mətbuatımızın inkişafı bütün digər sahələrdə olduğu kimi, Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı mətbuatımızın inkişaf tarixində də yeni mərhələ açıb.

1998-ci ildə Ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan mətbuatının üzərindən dövlət senzurasının ləğv edilməsi ilə ölkəmizdə söz və mətbuat azadlığının əsası qoyulub və bu, mətbuatın inkişafına ciddi təkan verib.







Ulu öndərin mətbuata və mətbuat nümayəndələrinə göstərdiyi diqqət və qayğı Ümummilli liderin layiqli varisi Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Ölkəmizdə söz və mətbuat azadlığı tam təmin olunub. Təsadüfi deyil ki, hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, internet qəzetçilik inkişaf edir. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı ilə Azərbaycan mətbuatı qlobal informasiya məkanına daxil olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 12 yanvar tarixli "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" fərmanı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradılıb. MEDİA agentliyinin yaradılması, eyni zamanda, "Media haqqında" qanunun qəbul edilməsi ölkəmizdə media sahəsində islahatların daha sürətlə və mütəşəkkil qaydada aparılmasına imkan verir.

44 günlük Vətən müharibəsində və müharibədən sonrakı dövrdə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında ən böyük missiyanı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev özü reallaşdırdı. Onun Vətən müharibəsi dövründə 30-dan çox beynəlxalq media qurumuna geniş müsahibələri bu reallıqların dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. İndiyədək davam edən informasiya müharibəsində mətbuat işçiləri də öz peşəkarlıq və vətənpərvərlikləri ilə daim fərqləniblər. Media nümayəndələri Vətən müharibəsində cəbhə xəttində həm xəbər istehsalçısı, həm də səfərbərlik proqramı çərçivəsində əməliyyatlara cəlb olunublar. Azərbaycanın onlarla jurnalisti Vətən müharibəsində döyüşçü kimi iştirak edib və müxtəlif medallarla təltif olunub.

BDU Azərbaycanın jurnalist kadrlar hazırlayan ən böyük ali təhsil müəssisəsidir. Hər il Universitetin Jurnalistika fakültəsini orta hesabla 100-dən artıq məzun bitirir. Jurnalistika böyük peşəkarlıq, fədakarlıq və məsuliyyət tələb edən şərəfli bir peşədir. Bu müqəddəs yolda qələm çalan bütün mətbuat nümayəndələrinə, Jurnalistika fakültəsinin müəllimlərinə, məzunlarına və tələbələrinə uğurlar arzulayırıq!

***Milli Mətbuat Gününüz mübarək!***

# Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 53-cü ildönümü qeyd olunub

***İyulun 14-də Bakı Dövlət Universitetində Tarix fakültəsinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 53-cü ildönümünə həsr olunmuş dəyirmi masa keçirilib.***

Dəyirmi masada giriş nitqi ilə çıxış edən Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov Heydər Əliyevin 1969-cu il iyulun 14-də ölkəmizdə siyasi hakimiyyətə gəlməsinin mühüm tarixi hadisə olduğunu bildirib. Qeyd edib ki, ömrünü dövlətinin, xalqının inkişafına, çiçəklənməsinə və rifahına həsr edən Ulu öndərin adı Azərbaycanın tarixinə qızıl hərflərlə yazılıb. Natiq Ümummilli lider Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı, müstəqilliyimizin qorunması və milli dövlətçiliyimizin gücləndirilməsi istiqamətində misilsiz xidmətlərindən, böyük xilaskarlıq missiyasından ətraflı bəhs edib. Ulu öndərin milli inkişafın yeganə yolunu xalqın yüksək təhsil almasında, maarifl ənməsində gördüyünü, respublikada elmin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirdiyini vurğulayıb.

BDU-nun Qafqaz xalqları kafedrasının müdiri İradə Hüseynova və Azərbaycan tarixi kafedrasının professoru Nuru Məmmədov çıxışlarında Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafı, ölkə iqtisadiyyatının dirçəldilməsi, respublikanın inkişafına hesablanmış çoxsaylı layihələrin həyata keçirilməsi uğrunda misilsiz xidmətlərindən söhbət açıblar. Çıxışçılar həmçinin dahi şəxsiyyətin Azərbaycanda milli hərbçi kadrların yetişdirilməsi istiqamətində qəbul etdiyi tarixi qərarlardan bəhs ediblər.

# BDU-nun rektoru Elçin Babayev Türkiyənin Uşak Universitetinin rektoru ilə görüşüb

***İyulun 1-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Türkiyə Respublikasının Uşak Universitetinin rektoru Ekrem Savaşla görüşüb.***

Rektor Elçin Babayev qonağa BDU-nun tarixi, strukturu, tədris və elmi fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd edib ki, BDU Azərbaycanın ən qədim və böyük universitetidir. Universitetdə hazırda 16 fakültə, 120 kafedrada ali təhsilin bütün səviyyələrində 25000-ə yaxın tələbə təhsil alır, 3000-ə qədər əməkdaş, o cümlədən 1500 nəfərə qədər professor-müəllim heyəti və elmi işçi çalışır. BDU "Times Higher Education" nüfuzlu beynəlxalq reytinq siyahısında yer alan ilk Azərbaycan ali məktəbidir və əsas elm, təhsil reytinqlərində ölkə üzrə liderliyini qoruyub saxlayır.

Elçin Babayev qardaş Türkiyə universitetləri ilə əməkdaşlığın və ikili diplom proqramlarının qəbulunun da BDU üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Uşak Universitetinin rektoru Ekrem Savaş da rəhbərlik etdiyi universitet barədə ətraflı məlumat verib, BDU ilə elmin müxtəlif sahələri üzrə əməkdaşlığa hazır olduğunu qeyd edib. O bildirib ki, 2006-cı ildən fəaliyyət göstərən Uşak Universitetinin 14 fakültəsi, 11 peşə məktəbi, 26 mindən çox tələbəsi var.

Görüşdə BDU və Uşak Universiteti arasında əlaqələrin perspektivləri, ikili diplom proqramlarının qəbulu, birgə tədqiqatların aparılması, ortaq konfrans və simpoziumların keçirilməsi ilə bağlı müzakirələr aparılıb.

# BDU-da "British Council" təşkilatının nümayəndələri ilə görüş

**Tələbə və əməkdaşların xarici dil biliyi səviyyəsinin yüksək olması tədrisin və elmi-tədqiqatların keyfiyyətinə, beynəlxalq əlaqələrin gücləndirilməsinə öz töhfəsini verir. Bu məqsədlə Universitetdə "You will speak" Dil Mərkəzi də yaradılıb.**

**İyulun 7-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev "British Council" təşkilatının Azərbaycan üzrə direktoru Nərgiz Hacıyeva və Cənubi Qafqaz üzrə imtahan meneceri Nərgiz Əkbərova ilə görüşüb.**

BDU-nun rektoru Elçin Babayev Universitetdə son illər həyata keçirilən islahat və yeniliklər barədə qonaqlara məlumat verib. Qeyd edib ki, Universitetin professor-müəllim heyəti və tələbələrinin xarici dil biliklərinin yüksək səviyyədə olması diqqət mərkəzində saxlanılır. Rəqəmsallaşan dünyada müxtəlif xarici dillərin öyrənilməsi günün tələbidir. İngilis dilinin öyrənilməsi həm tədris, həm də elmi-tədqiqat prosesində zərurətə çevrilib. BDU artıq tədqiqat universiteti statusunu almağa hazırlaşır. Tələbə və əməkdaşların xarici dil biliyi səviyyəsinin yüksək olması tədrisin və elmi-tədqiqatların keyfiyyətinə, beynəlxalq əlaqələrin gücləndirilməsinə öz töhfəsini verir. Bu məqsədlə Universitetdə "You will speak" Dil Mərkəzi də yaradılıb. Rektor BDU-nun böyük təcrübəyə malik "British Council" təşkilatı ilə beynəlxalq dil imtahanlarının keçirilməsi, müəllim və tələbələrin xarici dil biliklərinin daha da artırılması istiqamətində əməkdaşlıqda maraqlı olduğunu bildirib.

"British Council" təşkilatının nümayəndələri iki təşkilat arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayaraq, bu əlaqələrin gələcək inkişaf perspektivlərini diqqətə çatdırıblar.

Qeyd edək ki, dünyanın ən qədim mədəni əlaqələr təşkilatı olan "British Council" 1934-cü ildə qurulub. Xarici ölkələrdə ilk ofisləri 1938-ci ildən fəaliyyət göstərməyə başlayıb. Təşkilat gənclərin öz potensiallarını reallaşdırmaq, güclü və əhatəli cəmiyyətlərdə fəaliyyət göstərmək üçün onlara lazım olan bir sıra bacarıqları və imkanları qazanmalarına kömək edir. Bundan başqa, insanların ingilis dilini öyrənmələrinə, yüksək keyfiyyətli təhsil almalarına və beynəlxalq səviyyədə yüksək bacarıqlara yiyələnmələrinə dəstək olur.

# BDU və Qazaxıstan universitetləri arasında əlaqələr genişlənir

**Hazırda BDU-da 7 ikili diplom proqramı həyata keçirilir. Onlardan ikisi Qazaxıstanın nüfuzlu universitetləri ilə reallaşdırılıb**

***Bakı Dövlət Universitetində tədrisin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması, Universitetin beynəlxalq rəqabətliliyinin artırılması və ölkəmizdə yeni nəsil yüksək ixtisaslı mütəxəssislərin hazırlanması məsələsinə xüsusi diqqət yetirilir. Beynəlxalq təcrübədən, qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından faydalanmaq məqsədi ilə dünyanın bir sıra qabaqcıl universitetləri ilə beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsi istiqamətində davamlı işlər görülür.***

Hazırda BDU-da 7 ikili diplom layihəsi proqramı fəaliyyət göstərir. Onlardan 2-si Qazaxıstanın tanınmış universitetləri ilə reallaşdırılıb. Belə ki, BDU və Qazaxıstanın Əl-Fərabi adına Qazax Milli Universiteti arasında "Dəniz və enerji hüququ" adlı magistratura proqramının təşkili ilə bağlı imzalanmış müqaviləyə əsasən, 2020-ci ildən ingilis dilində birgə magistr hazırlığı həyata keçirilir. Bu proqram digər xarici ali təhsil müəssisələrinin də diqqətini çəkib.

BDU və K.İ.Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universiteti (QMTTU) arasında 2021-ci ildə imzalanmış müqaviləyə əsasən isə, BDU-nun Kimya fakültəsi və QMTTU-nun Kimya və Biotexnologiyalar İnstitutunun magistratura proqramının bazasında "Neft kimyası" ixtisaslaşması üzrə magistratura səviyyəsində birgə ikili diplom proqram həyata keçirilir. Bu proqram çərçivəsində neft kimyası və kimya mühəndisliyi elmləri üzrə yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsi nəzərdə tutulur.

Hazırda Qazaxıstanın L.N.Qumilyov adına Avrasiya Milli Universiteti və Ş.Yessenov adına Xəzər Dövlət Texnologiyalar və Mühəndislik Universiteti ilə ikili diplom layihələrinin reallaşdırılması son mərhələdədir.

2021-2022-ci tədris ilində BDU-da ümumilikdə 7 nəfər Qazaxıstan vətəndaşı təhsil alır. Onlardan biri Təhsil qrantı proqramı üzrə Beynəlxalq münasibətlər və İqtisadiyyat fakültəsinin tələbəsidir. BDU ilə Yessenov Dövlət Universiteti arasında imzalanmış memoranduma əsasən, 2021-2022-ci tədris ilinin yaz semestrində 4 tələbə Tətbiqi riyaziyyat və kibernetika və Hüquq fakültələrində mübadilə yolu ilə təhsillərini davam etdiriblər. BDU ilə Abay adına Qazax Milli Pedaqoji Universiteti arasında imzalanmış memoranduma əsasən, bir nəfər doktorant 2021-2022-ci tədris ilinin yaz semestrində Sosial elmlər və psixologiya fakültəsində, Əl-Fərabi Qazax Milli Universiteti ilə imzalanmış memoranduma əsasən isə 2 nəfər magistrant Biologiya fakültəsində təcrübə keçib.

# BDU-nun "Web of Science" bazasında indekslənən daha bir elmi jurnalının təsir əmsalı yüksəlib



***İyulun 1-də "Clarivate Analitics" Beynəlxalq İnformasiya Agentliyinin bu günlərdə açıqlanan hesabatına əsasən, Bakı Dövlət Universitetinin (BDU) "Web of Science" bazasında indekslənən "TWMS Journal Pure and Applied Mathematics" jurnalının impakt faktoru (təsir əmsalı) 1.892-dən 2.722-ə qədər yüksəlib. Hazırda jurnalın 5 il üzrə orta impakt faktoru 1.846 təşkil edir.***

Jurnal dünyada riyaziyyat kateqoriyası üzrə "Web of Science" bazasında indekslənən 332 beynəlxalq nəşr arasında 17-ci, Avropada isə 9-cu yerdə qərarlaşıb. Jurnalın redaksiya heyətinə dünyanın 18 ölkəsindən 49 görkəmli alim daxildir. Jurnalın indiyədək nəşr olunmuş 25 nömrəsində 250-dən artıq məqalə dərc edilib.

Qeyd edək ki, 2015-ci ildə jurnal "Clarivate Analitics" Beynəlxalq İnformasiya Agentliyinin "Emerging Sources Citation Index" və 2020-ci ildə isə "Science Citation Index Expanded" istinad indekslərinə daxil edilib. Jurnalda dərc olunan məqalələr "MatReviews", "Zentrablatt" və "VINITI" kimi bazalarda arxivləşdirilir.

# BDU və Mediasiya Şurası arasında əməkdaşlıq memorandumu imzalanıb



***İyulun 21-də Bakı Dövlət Universiteti və Mediasiya Şurası arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Memorandumu BDU-nun rektoru Elçin Babayev və Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov imzalayıblar.***

İmzalanma mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, ali təhsilin keyfiyyətinin yüksəldilməsi, təhsilalanların bilik və praktik bacarıqlarının təkmilləşdirilməsi üçün təhsil və təcrübənin sıx inteqrasiyasının təmin edilməsi zəruridir. Bu baxımdan BDU və Mediasiya Şurası arasında əməkdaşlıq memorandumunun imzalanması mühüm əhəmiyyət daşıyır: "Mediasiya institutu mübahisələrin həlli üsulu kimi yeni yaransa da, çox sürətlə inkişaf edir. Bu sahəyə cəlb olunan mediatorların əksəriyyəti BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin məzunlarıdır. Ali təhsil müəssisəsi olaraq biz ölkəmizdə mediasiya institutunun inkişaf etdirilməsində, Universitetlə Mediasiya Şurası arasında əməkdaşlığın gücləndirilməsində, təhsilalanların bu sahədə bilik və bacarıqlarının, mediatorların peşəkarlığının artırılmasında maraqlıyıq. Ümid edirik ki, əməkdaşlıq çərçivəsində uğurlu nəticələrə nail olacağıq".

Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov isə imzalanan memorandumun Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar kursuna dəstək olduğunu bildirib. Qeyd edib ki, yeni yaranmasına baxmayaraq, Mediasiya Şurasının 214 üzvü var, gələcəkdə onların sayının 3500-dək artırılması gözlənilir. İndiyədək Şura 40 minədək mübahisəli işə baxıb, onlardan 30 mini ailə mübahisələri olub. Şura tərəfindən BDU-nun Hüquq, Sosial elmlər və psixologiya fakültələrində və SABAH qruplarında görüşlər keçirilib, Universitetin 20 tələbəsi könüllü kimi mediasiya işlərinə cəlb olunub. Nadir Adilov BDU ilə əməkdaşlığın mediasiya sahəsində inkişafa səbəb olacağına əminliyini bildirib.

Daha sonra çıxış edən Mediasiya Şurasının Komissiya üzvü, pedaqogika elmləri doktoru Həsən Bayramov, BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin dekanı Rövşən Cavadov imzalanan memorandumun əhəmiyyətini vurğulayıb, mediasiya sahəsinin inkişafı ilə bağlı təkliflərini veriblər.

Qeyd edək ki, memoranduma əsasən, BDU-da müvafiq sahə ilə əlaqəli təlim-tədris prosesi daha da təkmilləşdiriləcək, Universitetin Nizamnaməsi ilə müəyyən edilmiş fəaliyyət sahələri üzrə mediasiya xidmətlərinin göstərilməsinə dəstək həyata keçiriləcək. BDU-nun tələbələri üçün Mediasiya Şurasında və onun qurumlarında istehsalat və könüllü təcrübə proqramları təşkil olunacaq. professor-müəllim heyəti Şura tərəfindən həyata keçirilən layihələrdə müqavilə əsasında məsləhətçi kimi fəaliyyət göstərəcək. Şuranın yüksək ixtisaslı mütəxəssisləri müvafiq ixtisas üzrə mühazirələr oxumaq üçün Universitetin tədris prosesinə cəlb olunacaq, birgə beynəlxalq və respublika əhəmiyyətli konfranslar, seminarlar, təlimlər keçiriləcək. Memorandumda həssas əhali qrupları üzrə mediasiya xidmətinin təşkilinə dəstək göstərilməsi, Universitet və Şura arasında cəmiyyət üçün aktual olan məsələlərin birgə həll edilməsi ilə bağlı korporativ sosial məsuliyyət, habelə digər layihələrinin həyata keçirilməsi, beynəlxalq layihələrdə birgə əməkdaşlıq da nəzərdə tutulur.



# BDU-nun rektoru İctimai Nəzarət Şurasının üzvləri ilə görüşüb



***İyulun 28-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Universitetin İctimai Nəzarət Şurasının üzvləri ilə görüşüb.***

Görüşdə BDU-nun rektoru Elçin Babayev 2021-2022-ci tədris ilində Universitetdə tədris və elm istiqamətində həyata keçirilən işlər, yeniliklər, yay imtahan sessiyasının yekunları barədə məlumat verib.

Bildirib ki, hazırda Universitetdə tədris tarixi ənənələrin və modern dünya təcrübəsinin vəhdəti şəklində müasir, innovativ təlim texnologiyaları əsasında qurulur, elmi-tədqiqat işlərinin məzmunu günün tələblərinə uyğun şəkildə yenilənir, beynəlxalq akademik əlaqələr və ölkədaxili əməkdaşlıq daha da inkişaf etdirilir, struktur islahatları həyata keçirilir, gənc kadrlar irəli çəkilir. Dünyanın bir sıra aparıcı universitetləri ilə birgə ikili diplom proqramları həyata keçirilir.

Görüşdə BDU-nun qarşısında duran vəzifələrin səmərəli icrası ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

İctimai Nəzarət Şurasının sədri, millət vəkili Arzu Nağıyev və şuranın üzvləri - millət vəkili Əminə Ağazadə, Moderator.az saytının baş redaktoru Zülfüqar Hüseynzadə BDU-da tədris prosesinin, elmi fəaliyyətin daha da təkmilləşdirilməsi ilə bağlı təkliflərini bölüşüblər.

# Uşak Universitetinin rektoru BDU-da "Bəzi yeni ardıcıllıqlar fəzası" mövzusunda məruzə edib

***İyulun 1-də Bakı Dövlət Universitetinin (BDU) Mexanika-riyaziyyat fakültəsinin növbəti elmi seminarı keçirilib. Seminarda Türkiyə Respublikasının Uşak Universitetinin rektoru professor Ekrem Savaş "Bəzi yeni ardıcıllıqlar fəzası" mövzusunda məruzə edib.***



Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev Ekrem Savaşın türk dünyasının önəmli riyaziyyatçılarından biri olduğunu, dünyanın qabaqcıl elmi jurnallarında çox sayda elmi məqalələrinin çap edildiyini vurğulayıb.

Tədbirin moderatoru professor Arif Səlimov Ekrem Savaşın elmi fəaliyyəti haqqında daha ətraflı məlumat verərək bildirib ki, o, 2010-cu ildən Türkiyə Elm və Texnologiya Komitəsinin (TÜBİTAK) Elmi araşdırmalara dəstək proqramları İdarə Heyətinin, 2012-ci ildən Türkiyə Elmlər Akademiyasının həqiqi üzvüdür. Ekrem Savaşın "Web of Science"da çap olunmuş məqalələrinin sayı 266, həmin məqalələrə istinadların sayı 1964, H-indeksi isə 21-dir.

Daha sonra söz Ekrem Savaşa verilib. Məruzəçi tədbir iştirakçılarını rektoru olduğu Uşak Universiteti haqqında məlumatlandırıb. Qeyd edib ki, Uşak Universitetinin 14 fakültəsində 26 mindən çox, o cümlədən 55 xarici ölkədən tələbə təhsil alır.

Ekrem Savaş bildirib ki, təbiətşünaslığın bir çox sahələrində gedən proseslərin riyazi modelləşdirilməsi zamanı yeni fəzaların qurulmasına ehtiyac yaranır. O, bəzi yeni ardıcıllıqlar fəzasının qurulması və strukturu haqqında məlumat verib. Bildirib ki, yeni fəzalarda ardıcıllıqların statistik yığılması iqtisadiyyatda da mühüm əhəmiyyət kəsb edir.

Sonra Ekrem Savaş seminar iştirakçılarının suallarını cavablandırıb.

# BDU-nun Əqli mülkiyyət hüququ kafedrasının Əqli Mülkiyyət Agentliyində filialı yaradılıb





*İyulun 8-də BDU-nun Əqli mülkiyyət hüququ kafedrasının Əqli Mülkiyyət Agentliyində filialı yaradılıb. Bu, Əqli Mülkiyyət Agentliyi və Bakı Dövlət Universiteti arasında imzalanan müqavilədə öz əksini tapıb. Müqaviləni Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov və BDU-nun rektoru Elçin Babayev imzalayıblar.*

BDU-nun Əqli mülkiyyət hüququ kafedrasının Əqli Mülkiyyət Agentliyində filialının yaradılmasında məqsəd Universitetdə tədris prosesinin elmi təcrübə ilə əlaqələndirilməsi, elm və təhsilin istehsalata inteqrasiyasının gücləndirilməsi, tələbə və magistrantlarda tədqiqatçılıq və peşə fəaliyyəti üçün zəruri olan praktiki bilik, bacarıq və vərdişlərin formalaşdırılması, əqli mülkiyyət hüququ elmi sahəsində yeniliklərin və innovasiyaların tədris prosesinə tətbiqi, müvafiq ixtisas sahələri üzrə aparıcı mütəxəssislərin tədris prosesinə cəlb edilməsi, birgə elmi tədqiqatların aparılması, Universitet və Agentlik arasında elmi-tədqiqat və kadr hazırlığı sahəsində əməkdaşlığın yaradılması və inkişaf etdirilməsidir.

Filial Universitetin Əqli mülkiyyət hüququ kafedrasının Agentliyin nəzdində fəaliyyət göstərən elmi-tədris bölməsidir. Filialın ştatları kafedranın ştatda olan professor-müəllim heyəti və Agentliyin aparıcı mütəxəssisləri sırasından seçilərək formalaşdırılır. Agentlikdə filialın fəaliyyəti üçün hər cür şərait - smart siniflər, treninq mərkəzləri, zəngin elmi-metodik və tədris bazası mövcuddur.

# Əqli Mülkiyyət Agentliyinin İH sədri Kamran İmanov BDU-nun professor-müəllim heyətinə mühazirə oxuyub

*İyulun 8-də Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri professor Kamran İmanov BDU-nun professor-müəllim heyətinə Azərbaycanda əqli mülkiyyət sisteminin xüsusiyyətləri, müasir dünyada əqli mülkiyyət və əlaqəli hüquqların qorunması ilə bağlı mühazirə oxuyub.*

Kamran İmanov mühazirəsində Azərbaycanda əqli mülkiyyət sisteminin yaradılması, formalaşması, xüsusiyyətləri, qanunvericilik bazasına dair ətraflı məlumat verib. Bildirib ki, Azərbaycanda əqli mülkiyyət sisteminin yaradılması Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Əqli Mülkiyyət Agentliyinin sələfi olan Müəllif Hüquqları Agentliyinin yaradılması, əqli mülkiyyət hüquqlarının Azərbaycan Konstitusiyasında təsbiti məhz Ulu öndərin hakimiyyətə ikinci qayıdışından sonraya təsadüf edir. Ölkədə əqli mülkiyyət sisteminin inkişafının səbəbkarı isə Prezident İlham Əliyevdir: "Bir örtük altında sənaye mülkiyyəti (ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları) və müəlliflik hüququnun (Copyright) birləşməsi zərurətə çevrilmişdi. Uzun illər bu qollar bir-birindən ayrılıqda fəaliyyətdə idilər. Lakin Prezident İlham Əliyev institusional islahatlar həyata keçirdi. Əqli Mülkiyyət Agentliyinin mandatı həm müəlliflik hüquqları və əlaqəli hüquqlar sahəsini, həm də sənaye mülkiyyəti sahəsini əhatə edir. Agentliyin tabeliyində Patent və Əmtəə Nişanlarının Ekspertizası, Əqli Mülkiyyət Hüquqlarının Təminatı, Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzləri yaradıldı, Respublika Elmi-Texniki Kitabxanası onun tərkibinə verildi. Beləliklə, aparılmış islahatlar nəticəsində biliklərin əldə və dərk edilməsi, yeni biliyin yaradılması və kommersiyalaşaraq, innovasiyaya çevrilməsinə xidmət edən struktur yaradıldı.



Dövlət başçımızın da dediyi kimi, "Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir".

Kamran İmanov qeyd edib ki, Agentliyin qarşısında duran vəzifələr ölkənin innovasiya siyasəti ilə müəyyən edilir və həyata keçirilən iqtisadi və hüquqi islahatlara xidmət edir.

Agentlik sədri daha sonra qabaqcıl beynəlxalq təcrübədə əqli mülkiyyət üzrə tədris və təhsil proqramları barədə məlumat verib. Həmçinin bildirib ki, müasir zamanın çağırışları peşəkar əqli mülkiyyət mütəxəssislərinin qıtlığının aradan qaldırılmasını, digər tərəfdən isə əhalinin əqli mülkiyyət mədəniyyət, bilik və məlumatlılığının daha yüksək səviyyəyə qaldırılmasını tələb edir: "Bunlara nail olmaq üçün əlverişli yollar əqli mülkiyyət savadının tələbə auditoriyasına gətirilməsi, təhsil sistemində əqli mülkiyyət anlayışının mistifikasiya səviyyəsindən konkret bilik və vərdişlər mərhələsinə qaldırılmasıdır. Bununla yanaşı, unudulmamalıdır ki, müasir universitetlər 3.0 modeli ilə fəaliyyət göstərirlər (təhsil + elmi tədqiqatlar + biliklərin kommersiyalaşması) və bunların başında düşünülmüş əqli mülkiyyət siyasəti durur. Təcrübə göstərir ki, ABŞ-da və qabaqcıl Avropa dövlətlərində aparıcı sənaye sahələrinin formalaşmasının 80%-dən çox payı universitetlərdə icad edilən yeniliklərlə bağlıdır. Azərbaycanda bu növ universitetlərin təkamülü vacib sosial və iqtisadi problemdir. Çünki müvafiq beynəlxalq reytinqlərin göstərdiyi kimi, bizim "innovasiya resurslarımız" "innovasiya nəticələrimizi" qat-qat üstələyir".



Kamran İmanov daha sonra Əqli Mülkiyyət Agentliyi və Bakı Dövlət Universiteti arasında kadr hazırlığı və elmi-tədqiqat sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumunun imzalanmasının, həmçinin Agentliyin nəzdində BDU-nun Əqli mülkiyyət hüququ kafedrasının filialının yaradılmasının önəmini vurğulayıb. Bildirib ki, istehsalatda, yəni əqli mülkiyyət sisteminin dövlət siyasətini həyata keçirən orqanda BDU-nun Əqli mülkiyyət hüququ kafedrasının filialının yaradılması "təhsil-elm-istehsalat" müasir birliyinin yaradılması deməkdir və bunun bəhrələri yaxın zamanda görünəcək.

Məruzə BDU əməkdaşları tərəfindən maraqla və alqışlarla qarşılanıb.

# Mədəniyyət-Yaradıcılıq Mərkəzinin üzvləri mükafatlandırılıb



***İyulun 1-də Bakı Dövlət Universitetinin Mədəniyyət-Yaradıcılıq Mərkəzinin üzvləri ali təhsil müəssisələrinin tələbələri arasında Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalında fəal iştiraka görə təltif ediliblər.***

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, Universitetin Mədəniyyət-Yaradıcılıq Mərkəzinin üzvləri müsabiqədə xor, bədii qiraət, rəqs və solo ifa janrları üzrə qalib olublar. Eləcə də BDU tələbələri müsabiqədə fəal iştiraka görə Təhsil Nazirliyi tərəfindən diplomlara layiq görülüblər.

Rektor tələbələrin Universitetin və ölkənin ictimai həyatında fəal iştiraklarının önəmini vurğulayıb, onlara uğurlar arzulayıb.

Daha sonra Mədəniyyət-Yaradıcılıq Mərkəzinin üzvlərinə diplom, fəxri fərman və hədiyyələr təqdim olunub.

# BDU-nun alimi İspaniyanın Donostia Beynəlxalq Fizika Mərkəzində tədqiqat aparacaq

***Təhsil-elm-tədqiqat-innovasiya mərkəzlərindən birinə çevrilməkdə olan Bakı Dövlət Universitetində elmin demək olar ki, bütün sahələri üzrə kadr hazırlığı həyata keçirilir, elmi tədqiqatlar aparılır və elmi nəticələrin kommersiyalaşdırılması istiqamətində istehsalatla əlaqələr genişləndirilir.***

Əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq elm və təhsil təşkilatları, dünyanın nüfuzlu universitetləri və elm qurumları ilə əlaqələrin genişləndirilməsi BDU-nun inkişaf strategiyasının prioritet istiqamətlərindəndir. Belə əməkdaşlıqlar çərçivəsində BDU-nun alimləri tədqiqatçı-alim və ya dəvətli tədqiqatçı kimi dünyanın bir sıra nüfuzlu universitet və elm qurumlarına dəvət olunaraq treninqlərdə və təcrübə mübadiləsində fəal iştirak edir, problem mövzular üzrə birgə elmi tədqiqatlar aparırlar.

BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməlik Mərkəzinin Tədqiqat və innovasiyalar sektorunun müdiri, texnika elmləri doktoru, dosent Ziya Əliyev dəvətli tədqiqatçı kimi İspaniyanın Donostia Beynəlxalq Fizika Mərkəzinə (DIPC) dəvət olunub.

O, 01 avqust - 29 sentyabr tarixlərində yeni nəsil maqnit topoloji izolyator - kvant materiallarının dizaynı və kristal quruluş xüsusiyyətlərini öyrənəcək. Maqnit topoloji izolyatorlar trivial topoloji indeksə malik olan üçölçülü maqnit materiallardır. Qeyri-maqnit topoloji izolyatordan fərqli olaraq, maqnit topoloji izolyatorlar səthində kvantlanma simmetriyası pozulduqda məxsusi yarığa (boşluğa) malik səth hallarına malik ola bilir. Belə maqnit izolyatorlar səthə perpendikulyar istiqamətdə topoloji cəhətdən qorunan yarımkvantlanmış səthi anomal Holl keçiriciliyi nümayiş etdirir.

Ezamiyyə müddətində yeni sinif maqnit topoloji izolyatorların sintezi və tədqiqi nəzərdə tutulub. Alınmış monokristal materiallar onların müxtəlif elektron xassələrinin öyrənilməsi məqsədi ilə Almaniya, İtaliya, İsveçrə və Yaponiyanın bir sıra universitet və elmi mərkəzlərinə göndəriləcək.

Qeyd edək ki, dünyada ilk maqnit topoloji izolyator olan MnBi2Te4 birləşməsi ilk dəfə azərbaycanlı alimlər Nazim Məmmədov, İmaməddin Əmiraslanov, Nadir Abdullayev və Ziya Əliyev tərəfindən alınıb. DIPC-in ümumi koordinatorluğu altında dünyanın bir neçə aparıcı universitetləri ilə birlikdə öyrənilib və alınan nəticələr 2019-cu ildə dünyanın ən nüfuzlu jurnalı olan "Nature" jurnalında dərc edilib. 2020-ci ildə isə layihə müəllifləri Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə elm sahəsində Azərbaycan Respublikasının Dövlət Mükafatı ilə təltif ediliblər.

## Astrofizika kafedrası 2022-ci ilin ən böyük Super Ay hadisəsi ilə bağlı məlumat yayıb

***İyulun 13-də Super Ay müşahidə olunacaq. Bu, 2022-ci ilin 2-ci Super Ayı olacaq. Qeyd edək ki, 1-ci Super Ay iyun ayının 14-də baş vermişdi, bu zaman Aya qədər məsafə 357433 km olub.***

Bakı Dövlət Universitetinin Astrofizika kafedrasının məlumatına görə, bu gün həmçinin Ayla əlaqəli iki mühüm astronomik hadisə baş verəcək: bu, perigey və Tam Aydır.

Perigey iyulun 13-də Bakı vaxtı ilə saat 13:09-da baş verəcək. Ay Yerə 357263 km-ə qədər yaxınlaşacaq və Ayın görünən diametri 33 dəqiqə 27 saniyə olacaq. Tam (Dolu) Ay həmin gün Bakı vaxtı ilə saat 22:38-də görünəcək. Super Ay hadisəsini bütün gecə ərzində Azərbaycan ərazisindən müşahidə etmək mümkün olacaq.

Dolu (bədirlənmiş) Ay təbii peykimizin perigeydə olmasına təsadüf edirsə, bu zaman Super Ay hadisəsi baş verir. Perigey Ayın orbitində planetə minimum məsafədə yaxınlaşdığı andakı nöqtədir. Bu, Ayın planetimizin ətrafında fırlandığı elliptik orbitlə bağlıdır. Bu hadisə sayəsində Yerdən Ay diskini adi haldan daha böyük ölçüdə görə bilirik.

Super Ay Tam ayın Yerə 362000 km-dən daha yaxın məsafədə yaxınlaşdığı və perigey və Dolu (Tam) Ayın keçid anları arasında müddət 3 gündən az olduqda baş verir. Bu iki anın (perigey və Tam Ay) üst-üstə düşmələri hər ilə təsadüf edir. İldə 12 və ya 13 Tam Aydan 3-ü və ya 4-ü Super Ay kimi müşahidə oluna bilər. Lakin perigey və Tam Ayın baş vermə anları arasında fərqin 9 saatdan az olması nadir haldır.

13 iyul 2022-ci ildə perigey ilə Tam Ay arasındakı fərq 9,5 saat olacaq. Bu, adi Super Ay hadisəsi sayılacaq. Ayın Yerə ən çox yaxınlaşması axırıncı dəfə 1948-ci ildə olub. Həmin vaxt Aya qədər məsafə 356461 km təşkil edib.

# BDU-nun şəhid məzunu Tural Eyyubovun doğum gününə həsr olunmuş tədbir keçirilib

***Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin şəhid məzunu Tural Eyyubovun doğum gününə həsr olunmuş tədbir keçirilib. Anım tədbirində fakültənin dekan müavini Şamo Cəbrayılov, kafedra müdiri Fərhad Mirzəyev, fakültənin əməkdaşları Səbinə Abbasova və Yasəmən Hüseynova iştirak ediblər. Çıxış edənlər Tural Eyyubovun valideynlərinə mərd, cəsur oğul böyütdükləri üçün öz minnətdarlıqlarını bildirib, bütün Azərbaycan xalqının onunla fəxr etdiyini qeyd ediblər.***

2009-cu ildə Tətbiqi riyaziyyat və kibernetika fakültəsinə daxil olan Tural Eyyubov 2013-cu ildə Universiteti bitirib və həmin ilin oktyabrında hərbi xidmətə yola düşüb. Hərbi xidməti zamanı motoatıcı taqım komandirliyi kursunu müvəffəqiyyətlə başa vuran Tural Eyyubov zabit kimi xidmətini davam etdirib. 2020-ci ilin oktyabrında Vətənin müdafiəsinə qatılan leytenant Tural Eyyubov Füzuli, Xocavənd, Şuşa uğrunda rəşadətlə döyüşərək, həmin ilin oktyabrın 25-də şəhidlik zirvəsinə ucalıb. Qəhrəman şəhidimiz ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif olunub.

# Geologiya fakültəsinin bir qrup professor-müəllim heyəti Filizçay yatağında



***İyulun 22-də Bakı Dövlət Universitetinin Geologiya fakültəsinin bir qrup professor-müəllim heyəti "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin kontrakt sahəsindəki Filizçay kolçedan-polimetal yatağında (Balakən-Zaqatala filiz rayonu) olub.***

Səfər BDU ilə "AzerGold" QSC arasında imzalanmış 2022-2023-cü il üzrə fəaliyyət planına müvafiq olaraq həyata keçirilib.

Fakültə əməkdaşları şirkətin Geoloji kəşfiyyat şöbəsinin müdir müavini Fuad Hüseynov və digər əməkdaşlarla birlikdə yataq ərazisində müşahidələr aparıb, kolçedan-polimetal filizləşməsinin yerləşmə qanunauyğunluğu, geoloji və fiziki-kimyəvi şəraitləri, iqtisadi mənimsənilməsi və istismarının ekoloji problemləri mövzularında fikir mübadiləsi aparıblar.

# BDU-nun 100 yaşlı Şərqşünaslıq fakültəsi

***Şərqlə Qərbin astanasında yaranmış Bakı Dövlət Universitetinin ən uca və qədim çinarlarından, görkəmli məzunları ilə tanınan, böyük ənənə və zəngin təhsil tarixinə malik, çoxlarının bir zamanlar arzusu olmuş Şərqşünaslıq fakültəsinin təşkilindən 100 il ötür. Yüz il insan üçün ölçülərkən ömrün qürub çağı, bəlkə də sonudur. Əgər bu halı Şərqşünaslıq fakültəsi barəsində desək, qocaman elm məbədi özünün gəncliyini də, elə ahıl çağlarını da müxtəlif alimlərin və şəxsiyyətlərin çiyni üzərində keçirib.*** Lakin klassik məktəblərin həmişəyaşar olduğuna inansaq, perspektivini itirməyən sahələrin heç zaman qocalmadığı, onların ömrünün nəsildən-nəslə calandığını qeyd etmək olar. İstər alimləri, istər müəllimləri, ictimai-siyasi xadimləri, diplomatları, şəhidləri, müharibə iştirakçıları, məzunları və tələbələri ilə 1922-ci ilin baharında çiçək açan Şərqşünaslıq, yeni inkişaf yoluna qədəm qoyaraq, ölkəmiz üçün yeni yüzilliyə doğru şərqşünas kadrların hazırlanmasında töhfə verməyə davam edir.

1919-cu ildə Azərbaycan Dövlət Universiteti təsis edilərkən, onun daxilində müstəqil Şərq fakültəsinin açılması nəzərdə tutulmamışdı. Bunun səbəbi Bakıda ixtisaslı şərqşünasların çatışmazlığı idi. O zaman Şərqşünaslıq fakültəsinin açılması prioritet sahə olmaqla yanaşı, strateji əhəmiyyət daşısa da, kadr məsələsi bu yeni sahənin rövnəq tapmasına maneçilik törədirdi. Bunlara baxmayaraq, ADU-da yaranan Tarix-filologiya ixtisasının tərkibində dünyada olan şərqşünaslıq üzrə tendensiyalara cavab vermək üçün, o cümlədən Şərqlə bir çox müştərək xüsusiyyətlərə malik olan bir ölkədə Şərq şöbəsinin yaranması vacib idi. O zaman belə bir prioritet sahənin Bakıda rövnəq tapması Qərbdə, xüsusən Rusiyada olan oxşar şərqşünaslıq məktəblərinin istiqamətlərinə uyğun gəlməli idi. Qeyd etmək lazımdır ki, Rusiyada yaranan şərqşünaslıq məktəblərinin əsasını da məhz Kazanda olan tatar mütəxəssislərlə yanaşı, məşhur azərbaycanlılar qoymuşdular.

"BDU-nun 100 yaşlı Şərqşünaslıq fakültəsi" sərlövhəli məqalədə qeyd olunub ki, tanınmış ictimai xadim, publisist Məmmədağa Şahtaxtinski 1920-ci illərin ortalarından etibarən universitetdə fəaliyyətə başlayıb, ilk dəfə Elmi Şura tərəfindən şərqşünaslıq sahəsi üzrə professor seçilib. Beləliklə, universitetin ilk azərbaycanlı professoru məhz məşhurlaşmaqda olan bu yeni istiqamətdən çıxmışdı. Bakıda şərqşünaslıq məktəbinin təşkili Kazan, Tiflis, Peterburq məktəblərinin bu sahədə özfəaliyyətinin əks-sədası olmaqla yanaşı, regionda yeni intellektual mərkəzin yaranması kimi xarakterizə olunurdu. O zaman bu sahənin əsasının qoyulması üçün məhz şərqşünaslıq üzrə ixtisaslı kadrların cəlb edilməsi zərurəti yaranmışdı.

1919-cu ildə Azərbaycan Dövlət Universiteti (ADU) təsis edilərkən rektor V.İ.Razumovski və Tarix-filologiya fakültəsinin dekanı A.N.Dubrovski Xarkov, Rostov, Kazan və digər şəhərlərin ali məktəblərində çalışan həmkarlarını yeni ali təhsil müəssisəsində fəaliyyət göstərmək üçün dəvət etdilər. Dəvət alanlar içərisində P.K.Juze də var idi. Əslən Qüdsdən olan xristian ərəb P.K.Juzenin təyinatı ozamankı siyasi düşüncənin təcəssümü, eyni zamanda, elmi məqsədlərin icrası baxımdan əhəmiyyətli idi. Belə bir poliqlot-alimin Azərbaycanda şərqşünaslıq sahəsinin məhək daşını atmaq üçün dəvət alması onun bu sahədə ən məşhurlardan olduğunu göstərirdi. Lakin məsələyə bir qədər geniş yanaşsaq, Juzenin Bakıya gəlməsi ilk universitetin açılması ilə əlaqədar hesab oluna bilərdi. Əvvəllər Osmanlı, sonra isə Rusiya vətəndaşlığını qəbul edən Juzenin Bakıya çox əvvəldən dəvətinə işarə edən sənədlərə istinad etsək, bu məsələ məhz Azərbaycanda baş verən tarixi hadisələrlə əlaqəli şəkildə 1920-ci ilə qədər uzanmışdı.

P.K.Juze məhz münbit elmi və rifahi şərait əldə etmək üçün Bakını seçdiyindən, burada yaranan yeni hökumət və onun devrilməsinə qədər olan zaman kəsiyində öz gəlişini təxirə salmalı olmuşdu. Əslində Juzeni, eləcə də digər Kazan professorlarını Bakıya gətirən səbəb təkcə elmin inkişafına töhfə vermək istəyi deyildi. Onların fəaliyyət göstərdiyi ərazilərdə müharibə, anarxiya hökm sürdüyündən, digər tərəfdən ictimai ehtiyaclar şərqşünasların bir qrupunu Bakını seçməyə məcbur etmişdi.

1920-ci illərdə P.K.Juze daxil olmaqla bir çox mütəxəssislərin Bakıya dəvəti, Nəriman Nərimanov, o cümlədən Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Səmədağa Ağamalıoğlunun fəaliyyətinin nəticəsi idi. Məhz o zaman P.K.Juze də Kazandan Bakıya köçmək və Şərq fakültəsinin qurulmasında iştirakla bağlı dəvət almışdı. Bakıda belə bir sahənin olmadığını nəzərə alan alim bu təklifi qəbul edib gəldikdən az sonra universitetin Tarix-filologiya fakültəsinin Şərq şöbəsində işə başlayıb. Fəaliyyətinin altıncı ayında P.Juze Azərbaycan gerçəkliklərini nəzərə alaraq Şərq şöbəsinin müstəqil fakültəyə çevrilməsi ilə bağlı məsələ qaldırıb və bir il sonra məqsədinə nail olmuşdu. Yeni fakültənin yaradılması ilə bağlı hazırladığı "İzahat qeydi"ndə respublika rəhbərliyi qarşısında müstəqil Şərqşünaslıq fakültəsinin yaradılması ilə bağlı zərurəti əsaslandıran P.Juze yazırdı: "Bakıda Şərq fakültəsinin açılmasını Yaxın və Orta Şərqin qovşağında, İran, Türkiyə və Orta Asiya arasında yerləşən, Volqaboyu və Ön Qafqaz xalqları ilə tarixi əlaqələrə malik Azərbaycanın son dərəcə uğurlu coğrafi mövqeyi bizdən tələb edir. Odur ki, Bakıda həmin ölkələrin öyrənilməsi üçün elmi müəssisənin yaradılması ideyası qanunauyğun bir şəkildə gündəliyə gəlməlidir. Şərq fakültəsi, həmçinin Zaqafqaziyada maarifçiliyin yayılmasına xidmət etməli, bu da öz növbəsində regionda Azərbaycanın rolunun daha da artmasına təkan verəcəkdir".



Başqa aspektdən o zaman Şərqşünaslığın müstəqil fakültəyə çevrilməsi zərurəti məhz 1920-ci ilin sentyabrında baş tutan Şərq xalqlarının I qurultayının nəticələri ilə sıx əlaqədar olduğu üçün, bu sahə üzrə nüfuzlu alimlərin işə cəlb edilməsilə kadr hazırlığının və strateji tədqiqatların aparılması tövsiyə edilmişdi.

Universitetin Elmi Şurası təzliklə P.Juzenin səmərəli fəaliyyət və xidmətlərini nəzərə alaraq, ərəb dili üzrə doktorluq dərəcəsi almış alimi 1921-ci ildə Ərəb dili və ədəbiyyatı kafedrasının professoru təyin edir. Alim 1937-ci ilə qədər bu vəzifəni icra edir. O, 1922-1926-cı illərdə müstəqil Şərq fakültəsinin dekanı, sonralar Yaxın Şərq xalqlarının etnoqrafiyası və tarixi kafedrasının müdiri vəzifələrində çalışır. Onun təşəbbüsü nəticəsində ADU-nun Şərq şöbəsi əsasında 2 şöbədən ibarət Şərq fakültəsi yaradılır. O, Azərbaycanda tədrisin və elmin inkişafı üçün görkəmli professorları, alimləri dəvət etmək məqsədilə Xalq Maarif Komissarlığı tərəfindən Moskva, Petroqrad, Simbirsk şəhərlərinə xüsusi ezam olunur. Həmin illərdə Azərbaycana gələrək fəaliyyət göstərənlərdən şərqşünas A.N.Samoyloviç, türkoloq N.İ.Aşmarin, şərqşünas, V.V.Bartold, dilçi N.Y.Marr, tarixçi A.S.Qubaydulin, ərəbşünas İ.Y.Kraçkovski, filosof A.O.Makovelski, İ.İ.Meşşaninov, türkoloq alimlər Bəkir Çobanzadə, B.Miller, A.R.Zifeldt, R.O.Şor, B.M.Dansiq, M.F.Köprülüzadə və başqalarının adlarını çəkmək olar.

Bakıdakı demokratik mühit P.K.Juzenin missioner ideyalarından uzaqlaşmasına, özünü tamamilə tarixi tədqiqatlara həsr etməsinə imkan yaradır. Sonralar professor Juze yüz il əvvəl əsası qoyulan fakültə kitabxanasının yaradılmasında böyük xidmətlər göstərir. O, 1921-ci ildə İrandan çoxlu sayda ərəb və fars əlyazmaları, 1924-cü ildə isə Yaxın Şərqə uzunmüddətli elmi ezamiyyəti zamanı Azərbaycan hökumətinin ayırdığı vəsait hesabına İstanbuldan müxtəlif dillərdə Şərq ölkələrinin tarixinə və ədəbiyyatına dair 2 min clddən çox kitab və əlyazmanın alınıb gətirilməsinə müvəffəq olur.

1928-ci ildə sovet ideologiyasının tələblərinə əsasən Şərq fakültəsi bağlandıqdan sonra pedaqoji fəaliyyətdən ayrılmaq məcburiyyətində qalan professor P.Juze əsas diqqətini orta əsrlər Azərbaycan tarixinə dair ərəb dilli mənbələrin tərcüməsinə və şərhinə yönəldir.

1924-1927-ci illərdə Azərbaycan Dövlət Universiteti Şərq fakültəsinin Filologiya şöbəsində təhsil alan C.Cabbarlıya da ərəb dili qrammatikasından və Şərq ədəbiyyatı tarixindən məhz professor Juze dərs demişdi. Cabbarlının ev-muzeyində saxlanılan qiymət kitabçasındakı müvafiq qeydlər də bu faktı bir daha təsdiq edir.

1920-ci illərdən etibarən respublika rəhbərliyi, o cümlədən professor P.K.Juzenin şəxsi dəvəti ilə fakültəyə gəlmiş məşhur şərqşünaslar müxtəlif illərdə fakültənin inzibati həyatında yer alıblar. Belə ki, Nikolay İvanoviç Aşmarin 1923-1926-cı illərdə Şərqşünaslıq fakültəsinin Türkşünaslıq kafedrasına rəhbərlik edib, 1924-cü ildən etibarən V.V.Bartold "Türk-tatar xalqları tarixi" kursundan, 1926-1927-ci illərdə İ.Meşşaninov, 1928-1930-cu illərdə professor Rozalya Osipovna Şor fakültədə dərslər aparıblar.

1924-ci ildə qısa müddətə Bəkir Çobanzadə dekan təyin edilib, 1924-cı ildən 1929-cu ilə qədər isə kafedra müdiri vəzifəsində çalışıb. 1926-cı ildə isə professor A.S.Qubaydulin fakültənin dekanı təyin edilib.

1930-cu ildə universitetin bazası əsasında 5 institut açıldığına görə Şərq şöbəsi bağlanıb, yalnız 1934-cü ildə yenidən təşkil edilib. 30-cu illərin sosial-ictimai vəziyyətinin ən gərgin dövrlərində fakültə ilkin sürətini bir qədər itirib, gah Filologiya fakültəsi nəzdində İranşünaslıq və Türkologiya şöbələri olmaqla, gah da müstəqil fakültə kimi fəaliyyət göstərib. Fakültə 1946-cı ildə bərpa olunsa da, 1950-ci ildə yenidən öz müstəqil fəaliyyətini əldən verib. Nəhayət, 1957-ci ildə Ərəb, Fars və Türk şöbələri olmaqla Şərqşünaslıq fakültəsi yenidən təsis edilib. 1957-ci ildə ərəb dili, fars və türk dillərini əhatə edən Yaxın Şərq dilləri və ərəb, fars, türk ədəbiyyatları tədris olunan Yaxın və Orta şərq xalqları ədəbiyyatı tarixi kafedraları yaradılıb.

Nəhayət, 1945-ci ildə ömrünün sonunadək universitetdə fəaliyyət göstərmiş professor Mübariz Əlizadə Şərqşünaslıq fakültəsinin ilk azərbaycanlı dekanı təyin olunur (1945-1950). O, sonralar uzun müddət fakültənin Yaxın və Orta Şərq xalqları ədəbiyyatı tarixi kafedrasına rəhbərlik edib. Ardıcıl olaraq 1957-1960-cı illərdə professor Rəhim Sultanov, 1960-1961-ci illərdə dosent Yusif Şirvan, 1962-1964-cü illərdə yenidən professor Mübariz Əlizadə, 1965-1977-ci illərdə professor Həsən Mahmudov, 1977-1981-ci illərdə professor Şulan Şirəliyev, 1981-1991-ci illərdə professor Vasim Məmmədəliyev, 1991-1999-cu illərdə dosent Elxan Əzizov, 1999-2002-ci illərdə dosent Əbdüləli Kərimov, 2002-2021-ci illərdə yenidən professor Elxan Əzizov fakültəyə rəhbərlik ediblər. 2022-ci ildən isə bu vəzifəni dosent Aydan Xəndan yerinə yetirir.

Yaxın Şərq və Orta Şərq xalqları ədəbiyyatı tarixi kafedrasına 1944-cü ildən akademik Həmid Araslı, 1957-1962-ci illərdə professor Mübariz Əlizadə, 1962-1965-ci illərdə yenidən akademik Həmid Araslı, 1967-1970-ci illərdə dosent Yusif Şirvan, 1970-1989-cu illərdə professor Mübariz Əlizadə, 1989-1991-ci illərdə professor Malik Mahmudov rəhbərlik edib. Xronika göstərir ki, müxtəlif illərdə fakültənin alimləri biri digərini inzibati vəzifələrdə əvəz ediblər. Qeyd etmək lazımdır ki, Yaxın Şərq dilləri kafedrasına 1957-ci ildən 1989-cu ilə qədər professor Rəhim Sultanov 1989-1990-cı illərdə professor Həsən Mahmudov rəhbərlik edib. 1990-cı ildən kafedraların balansında Ərəb, İran və Türk filologiyası kafedraları təşkil olunub, İran filologiyası kafedrasının ilk müdiri professor Həsən Mahmudov təyin edilib. Ardıcıl olaraq 1990-1996-ci illərdə professor Mirzə Rəhimov, 1996-2006-cı illərdə dosent Tofiq Cahangirov, 2006-ci ildən bu günə qədər iranşünas-alim, professor Mehdi Kazımov kafedraya rəhbərlik edir.

Paralel olaraq 1957-ci ildən Ərəb dili kafedrasının müdiri vəzifəsini Azərbaycanda müdafiə etmədən doktorluq dərəcəsi alan ilk alim, böyük ərəbşünas, professor Ələsgər Məmmədov (1957-1989) və dosent İsmayıl Şəms (1989-1991) tutublar. 1991-ci ildən 2019-ci ilə qədər Ərəb filologiyası kafedrasının müdiri vəzifəsini böyük ərəbşünaslar nəslinin layiqli davamçısı akademik Vasim Məmmədəliyev tutub. 2019-2022-ci illər arasında kafedra müdiri vəzifəsini dosent V.Qaradağlı və professor E.Əzizov icra edib, 2022-ci ildən isə Ərəb filologiyası kafedrasına fakültənin tanınmış yetirmələrindən, məşhur ərəbşünas-alim, dosent Vüqar Qaradağlı rəhbərlik edir.

Eyni zamanda, 1990-cı ildə fakültədə Türk filologiyası kafedrası təşkil olunub, ilk müdir türkoloq-alim, professor Rüfət Rüstəmov təyin edilib. Professor R.Rüstəmov bu günə qədər kafedra müdiri vəzifəsini icra edir.

Şərqşünaslıq fakültəsində 1957-ci ildə yaradılmış istiqamətlərlə yanaşı, uzun müddətdən sonra, ölkəmizin müstəqil respublikaya çevrilməsi və Yaxın və Uzaq Şərq ölkələri ilə yaranan münasibətlər konstekstində 1993-cü ildə ibri, 2000-ci ildə yapon, 2001-ci ildə urdu, 2002-ci ildə Çin və 2007-ci ildə isə Koreya şöbələri yaradılıb. Çin, Yaponiya və Koreya dilləri 2004-cü ildə yaradılan vahid Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasına daxil edilib. 2005-ci ildən kafedraya professor Oqtay Cəlilbəyli rəhbərlik edir.

Yüz yaşlı fakültənin yerli və xarici olmaqla çox məşhur müəllimləri olub: Professorlar Neyyərzaman Hatəmi, Malik Mahmudov, Əhməd Şəfai, Məmmədağa Sultanov, Təhminə Rüstəmova, Mirzə Rəhimov, Xeyri Əl-Abbasi, Aslan Eyvazov, dosentlər İsmayıl Şəms, Yusif Ziya Şirvan, Həsən Əlizadə, Aniyə Ələkbərova, Təhmuras Cəhani, Fəxrəntac Zülfüqarova, Məmmədtağı Zehtabi, Ağadadaş Dadaşov, Əkrəm Cəfər, Tofiq Cahangirov, Mənzərə Məmmədova, Əli Əliyev, Rəna Əhmədova, Əhməd Yusifi, Aşur Əzizov, Ağayusif Əliyev və başqaları.

Hazırda fakültədə akademik Rafael Hüseynov, professorlar Jalə Əliyeva, Əsgər Rəsulov, Elxan Əzizov, Nəsrulla Məmmədov, Aida Qasımova, Anar Kərimov, dosentlər Nüşabə Əlizadə, Əsmətxanım Məmmədova, Leyla Mahmudova, Bilqeyis Quliyeva, Bənövşə Hacıyeva, Şükufə Qədimova, Cəmilə Rüstəmova, Nigar İsmayılzadə, Arif Yunusov, Təranə Əkbərova, Çinarə Mütəllimova, Gülnarə Abdullayeva, Kəmalə Əhmədova, Heybət Heybətov, filologiya üzrə fəlsəfə doktorları Təranə Hüseynbalayeva, Tərlan Məlikov, baş müəllimlər Adil Yəhyayev, Şamil Alməmmədov, Hüseyn Sadıqov, peşəkar mütərcimlər Mais Ağaverdiyev, Rəşad Babayev, Şahin Yusifli, urdu dili üzrə yeganə mütəxəssislərdən Eldost İbrahimov, Koreya dili üzrə mütəxəssis Vüsalə Həsənova, yapon dili üzrə mütəxəssis Ellada Məmmədova və başqaları fəaliyyət göstərirlər.

Şərqşünaslıq fakültəsi keçən 100 ildə həm respublika, həm də müxtəlif ölkələr üçün böyük sayda mütəxəssislər hazırlayıb. Bu kadrlar içərisində Vyetnam, Polşa, Macarıstan, Kamboca, Laos, Çin, İran, Türkiyə, Almaniya və digər xarici ölkələrin vətəndaşlarının adını qeyd etmək olar. İndiyədək fakültəni bitirmiş yeddi nəfər Milli Məclisin deputatı, iyirmi beş nəfər Azərbaycan Respublikasını xaricdə təmsil edərək, fövqəladə və səlahiyyətli səfir kimi fəaliyyət göstərib. Hazırda da diplomatik, xüsusi xidmət, sərhəd, gömrük, miqrasiya orqanlarında fakültənin məzunları fəaliyyət göstərirlər.

Bugün Şərqşünaslıq fakültəsi genişlənərək 8 ölkə ilə bağlı geniş sahəni əhatə edir. Burada regionşünaslıq (Şərq ölkələri üzrə), filologiya (ərəb, fars və türk dili və ədəbiyyatı) və tərcümə (ərəb və fars dili) ixtisasları mövcuddur. Şərqşünaslıq fakültəsi dünyada mövcud müasir trendlər nəzərə alınmaqla, ölkələr üzrə ixtisaslı kadrların, filoloq və tərcüməçilərin hazırlanmasını hədəfləyir. Şərqşünaslıq fakültəsində tələbələr müvafiq ölkələr üzrə kompleks sahələr ilə tanış olur, azı iki Şərq dilinə yiyələnirlər. Fakültənin müxtəlif ixtisaslarından məzun olan tələbələr hər il öz sahələri üzrə uyğun olaraq təhsillərini ərəb ölkələrində, Türkiyə, İsrail, Pakistan, Yaponiya, Çin və Koreya universitetlərində davam etdirə bilirlər. Onlar koreyaşünaslıq üzrə "Viktorina", "Çin dili körpüsü" yarışları, fars dili və yapon dili üzrə olimpiadalarda, ərəb dili üzrə Asiya çempionatında, Qətər və Oman kimi dövlətlərin təşkil etdiyi beynəlxalq könüllülük hərəkatlarında iştirak edir, Şərq ölkələri üzrə müsabiqələrdə qalib gələrək, beynəlxalq arenada Bakı şərqşünaslıq məktəbini təmsil edirlər.

Bütün sadalananlar şərqşünaslığın yeni istiqamətlərdə, yeni tendensiyalar nəzərə alınmaqla inkişaf yolu seçdiyini göstərir və gələcəkdə daha təkmil, müasir çağırışlara cavab verən, klassik ənənələrə sadiq məktəbin hələ çox yaşayacağı ümidlərini artırır.

***Şahin Yusifli,***
*Şərqşünaslıq fakültəsinin dekan müavini*
*AZƏRTAC*

# BDU ICESCO-nun Rabatda keçirilən beynəlxalq tədbirinin həmtəşkilatçısıdır



***Mərakeşin paytaxtı Rabat şəhərində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) təşkilatçılığı ilə Birinci Beynəlxalq ICESCO Peyk Modeli (CanSat) Təlimi və Aerokosmos Simpoziumu keçirilib.***

18-22 iyul tarixlərində keçirilən simpoziumda Azərbaycanı Bakı Dövlət Universiteti (BDU) təmsil edib. BDU bu beynəlxalq tədbirin həmtəşkilatçılarından biridir: https://icesco-accelerator.org/cansat/.

Tədbirin məqsədi İslam dünyasında davamlı inkişaf üçün kosmik proqramların həyata keçirilməsi və kosmik texnologiyanın təhsil, elm və innovasiyada tətbiqi istiqamətlərində əməkdaşlığın gücləndirilməsi, dövlət, akademik və sənaye təşkilatlarındakı əsas maraqlı tərəflər, eləcə də ayrı-ayrı alimlər, mütəxəssislər, peşəkarlar, liderlər və sahibkarlar arasında geniş formatda müzakirələrin aparılması və kadr hazırlığı üzrə birgə beynəlxalq səylərin davam etdirilməsidir.

İyulun 18-də iclas çərçivəsində "Qlobal tərəfdaşlarla kosmik innovasiyaların inkişafı" adlı sessiyada BDU-nun rektoru Elçin Babayev də məruzə edib.

Rektor Elçin Babayev çıxışında bildirib ki, dünyanın kosmik sənaye sahəsindəki nailiyyətləri Azərbaycanda bu elmin və sənayenin inkişafına böyük təkan verib. Son illər Azərbaycanda kosmik tədqiqatların və kosmik sənayenin inkişafına, müasir texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilir və bu istiqamətdə kadr hazırlığı önəmli rol oynayır. Rektor Elçin Babayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində digər sahələrlə yanaşı, kosmik sənaye sahəsində bundan sonra da daha çox uğurlara imza atılacağına, doğma Azərbaycanımızın adının ən qabaqcıl kosmik ölkələr sırasında olacağına əminliyini bildirib. Təsadüfi deyil ki, Bakı şəhəri 2023-cü ildə keçiriləcək Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edəcək.

Rektor BDU-da elmin əsas prioritet istiqamətləri, o cümlədən astrofizika və kosmos elmlərinin inkişafına xüsusi diqqət yetirildiyini qeyd edib. BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin nəzdində Aerokosmik və Atmosfer Tədqiqatları Elmi-Tədqiqat Laboratoriyası yaradılıb. BDU-da yeni yaradılmış Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzində də astronomiya və kosmos elmləri istiqamətləri üzrə dərnək fəaliyyət göstərir.

2022-ci il 31 oktyabr - 4 noyabr tarixlərində Bakıda BMT-nin Kosmos Məsələləri üzrə Ofisi (UNOOSA) və BDU tərəfindən "Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, Kosmik Hava və Geosfer" adlı BMT/Azərbaycan beynəlxalq tədbirinin ("United Nations/Azerbaijan Workshop on the International Space Weather Initiative: The Sun, Space Weather and Geosphere") keçiriləcəyinə diqqət çəkən Elçin Babayev bildirib ki, bu yüksək səviyyəli tədbirə Qlobal Naviqasiya Peyk Sistemləri (GNSS) üzrə Beynəlxalq Komitə (ICG) də dəstək verəcək. Beynəlxalq Kosmik Hava Təşəbbüsü (The International Space Weather Initiative - ISWI) kosmik hava məlumatlarının əldə edilməsində zəruri sayılan cihazların quraşdırılmasına, həmin məlumatların təhlilinə və alınan nəticələrin digər rəqəmsal elmi məlumatlarla əlaqələndirilməklə analizinə xidmət edən beynəlxalq əməkdaşlıq proqramıdır. Bu proqram çərçivəsində Bakıda keçiriləcək tədbir Azərbaycanda adıçəkilən sahənin inkişafı üçün geniş imkanlar açacaq, kosmik tədqiqatların və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə zəmin yaradacaq. 5 gün davam edəcək beynəlxalq elmi tədbirin əsas məqsədləri inkişaf etməkdə olan ölkələrdə müvafiq elmi cihazların quraşdırılması və kosmik hava məlumatlarının emalı işlərini davam etdirməklə yanaşı, xüsusi maraq kəsb edən tədqiqat nəticələrinə diqqət yetirmək, eyni zamanda beynəlxalq koordinasiya və əməkdaşlığı yeni səviyyəyə qaldırmaqdan ibarətdir. Tədbirdəki müzakirələr həmçinin "Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi" və onun Dayanıqlı İnkişaf Məqsədləri (SDG) üçün müəyyən edilmiş hədəfləri ilə əlaqələndiriləcək, əldə olunan nəticə və tövsiyələr isə Birləşmiş Millətlər Təşkilatının Kosmosdan Dinc Məqsədlə İstifadə Komitəsinin (COPUOS) hesabatı çərçivəsində BMT-nin Baş Assambleyasına təqdim olunacaq.

# "Azərbaycanda turizm fəaliyyətinin kitabxana-informasiya təminatı" mövzusunda elmi seminar

***İyulun 6-da Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə "Azərbaycanda turizm fəaliyyətinin kitabxana-informasiya təminatı" mövzusunda elmi seminar keçirilib. Elmi seminarda Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının doktorantı Hacı Qasımlı mövzu ilə bağlı məruzə edib.***

Gənc tədqiqatçı informasiya əsri adlandırılan müasir dövrdə bütün fəaliyyət sahələrinin informasiya təminatının zəruri olduğunu bildirib. Turizmin məlumatlarla zəngin bir fəaliyyət sahəsi olduğunu qeyd edən doktorant bu prosesin səmərəli təşkilində turizm fəaliyyətinin kitabxana-informasiya təminatının mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Məruzədə ölkəmizdə turizm fəaliyyətinin kitabxana-informasiya təminatının mövcud vəziyyətinə nəzər salınıb, bu sahənin gələcək inkişaf modelinin hazırlanmasında kitabxanaşünaslığın və biblioqrafiyaşünaslığın rolundan bəhs olunub. Turizm sahəsinə dair sənəd-informasiya resurslarından səmərəli istifadənin turizm obyektləri arasında informasiya mübadiləsində xüsusi əhəmiyyətini qeyd edən tədqiqatçı kitabxana-informasiya təminatının turizmdə rəqabət qabiliyyətinin artması üçün innovativ bir qaynaq olduğunu vurğulayıb. Məruzədə həmçinin bu sahədə mövcud olan beynəlxalq praktika diqqətə çatdırılıb, Azərbaycan Milli Kitabxanasında, BDU-nun Elmi Kitabxanasında və Turizm və Menecment Universitetinin Kitabxana-İnformasiya Mərkəzində turizmə dair ədəbiyyatın ümumi statistik göstəriciləri təhlil olunub.

Elmi seminar diskussiyalarla davam etdirilib.

# BDU-nun tələbələri İsrailin Holon Texnologiya İnstitutunda yay təcrübə proqramında

*Bakı Dövlət Universiteti ilə İsrailin Holon Texnologiya İnstitutu arasında əməkdaşlıq uğurla davam edir.*

2020/2021-ci tədris ilindən başlayaraq BDU-da SABAH magistratura proqramları çərçivəsində "Kompüter elmləri və texnologiyaları" ixtisaslaşması üzrə mütəxəssis hazırlığı həyata keçirilir. Məqsəd təhsil, elm, sənaye və biznesin müxtəlif sahələri üçün dərin biliklərə malik olan, öz peşə fəaliyyətlərində praktik problemləri formalaşdıran və effektiv həll edə bilən yüksək ixtisaslı mütəxəssislər hazırlamaqdır. Əmək bazarının və beynəlxalq təcrübənin müasir tələblərinə cavab verən yeni məzmunun yaradılması və tətbiqi, tədrisin yüksək səviyyədə təşkili məqsədi ilə ixtisaslaşma üzrə təhsil proqramı Holon Texnologiya İnstitutunun müasir dövrün tələblərinə cavab verən proqramı əsasında hazırlanıb.



BDU-nun həmin proqram üzrə təhsil alan 5 magistrantı 17-24 iyul tarixlərində Holon Texnologiya Universitetində yay təcrübə proqramında iştirak ediblər. BDU, Azərbaycan Respublikasının Təhsil İnstitutunun və Holon Texnologiya İnstitutunun birgə əməkdaşlığı ilə təşkil olunmuş səfərdə tələbələr kompüter elmləri ilə yanaşı, bir sıra sahələrlə bağlı biliklər əldə ediblər.

Səfər çərçivəsində Holon Texnologiya İnstitutunun prezidenti, professor Eduard Yakubov tələbələr ilə görüş keçirərək institutun əsas fəaliyyət sahələri və burada təhsilin üstünlükləri barədə söhbət açıb. Tələbələr üçün institutun binasında gəzinti təşkil olunub, strukturu və burada həyata keçirilən layihələr haqqında məlumat verilib.

Təcrübə proqramı ərzində tələbələrə müxtəlif kurslarda kompüter elmləri, robot texnologiyaları və alqoritmlər sahəsində yeni innovasiyalar haqqında mövzular tədris olunub. Yay məktəbi çərçivəsində tələbələr İsrailin innovativ texnologiyaların tətbiq olunduğu texnologiya parkları ilə tanış olublar. Yüksək texnologiyalar və IT sahəsindən olan sənaye nümayəndələri ilə tələbələrin görüşləri keçirilib.

Yay təcrübə proqramında uğurla iştirak edən tələbələr Holon Texnologiya İnstitutu tərəfindən sertifikatla təltif olunublar.

# "Gənc istedadlar" liseyinin 9 şagirdi qızıl və gümüş medala layiq görülüb

***Təhsil naziri Emin Əmrullayev Ümumi təhsil müəssisələrinin 2021-2022-ci tədris ili üzrə məzunlarının qızıl və gümüş nişanla təltif olunması haqqında əmr imzalayıb.***

Əmrə əsasən, 136 şagird qızıl, 79 şagird isə gümüş nişana layiq görülüb.

Bakı Dövlət Universitetinin nəzdində "Gənc istedadlar" liseyinin 9 şagirdi qızıl və gümüş medalla təltif olunub. Liseyin şagirdləri Nəriman Şirinli, Rəfsan Həbibullayev, Tamella Süleymanova, Nuray Kərimli, Rəcəb İskəndərli, Ləman Cəfərli, Amin Zeynalov qızıl, Zəhra Məmmədli və Fərhad Hacıyev isə gümüş nişana layiq görülüblər.

Qızıl və gümüş nişanla təltif olunan təhsilalanların adları məktəbin "Şərəf kitabı"na yazılacaq.

# "Gənc istedadlar" liseyinin uğurları ilə seçilən bir qrup şagirdi ilə görüş



***İyulun 14-də Bakı Dövlət Universitetinin (BDU) rektoru Elçin Babayev BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin uğurları ilə seçilən bir qrup şagirdi ilə görüşüb.***

Rektor son illər "Gənc istedadlar" liseyində tədrisin yüksək səviyyədə təşkili ilə bağlı görülən işləri qeyd edib, bunun nəticəsində şagirdlərin beynəlxalq və yerli olimpiadalarda uğurlarının ildən-ilə çoxaldığını vurğulayıb. Elçin Babayev Liseyin builki məzunları - 56-cı Beynəlxalq Mendeleyev Olimpiadasının qalibi Nəriman Şirinli və 5-ci Avropa Fizika Olimpiadasının qalibi Rəfsan Həbibullayevi digər şagirdlərə nümunə göstərib, bütün şagirdlərə təhsillərində uğurlar arzulayıb, valideynlərə təşəkkür edib.

# "TEKNOFEST Azərbaycan"da uğurla iştirak edən BDU komandalarının üzvləri ilə görüş

***İyulun 6-da Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev bu ilin 26-29 may tarixlərində Türkiyə Texnologiya Komandası, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyinin təşkilatçılığı ilə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalında uğurla iştirak edən BDU komandalarının üzvləri ilə görüşüb.***



Rektor çıxışında Azərbaycanla Türkiyə arasında sarsılmaz dostluq və qardaşlıq əlaqələrinin daha bir parlaq nümunəsi olan "TEKNOFEST Azərbaycan"ın ölkəmiz üçün əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, bu festival ölkədə elm və texnologiyanın daha da inkişafına təkan verəcək.

Rektor BDU komandalarının festivalda iştirakını məqbul qiymətləndirib, komanda üzvlərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Daha sonra BDU-da yeni yaradılan Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin işinin daha da təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verib, tələbələri yeni təşəbbüslər irəli sürməyə çağırıb.

Tədbirin sonunda "TEKNOFEST Azərbaycan"da uğurla çıxış edən BDU komandalarının üzvlərinə təşəkkürnamə və fəxri fərmanlar verilib. Qeyd edək ki, BDU-nun 9 komandası "TEKNOFEST Azərbaycan"ın final mərhələsində iştirak edib. Onlardan biri festivalda 2-ci, biri isə 3-cü yerə layiq görülüb.

# BDU tələbələri II Fəxri Xiyabanı ziyarət ediblər

***İyulun 13-də Bakı Dövlət Universitetinin və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tələbə Gənclər təşkilatlarının rəhbərləri və fəal tələbələri II Fəxri Xiyabanı ziyarət ediblər.***



Ziyarət zamanı 2020-ci ilin 12-14 iyul tarixlərində baş vermiş Tovuz döyüşləri zamanı misilsiz qəhrəmanlıqlar nümayiş etdirərək qəhrəmancasına şəhid olan Milli Qəhrəman general-mayor Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin məzarları önünə gül dəstələri qoyulub, şəhidlərimizin xatirəsi dərin ehtiramla yad edilib.

Həmçinin ziyarət zamanı 44 günlük Vətən Müharibəsində xüsusi şücaət göstərərək şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarımızın məzarları ziyarət olunub, şəhidlərimiz haqqında tələbələrə ətraflı məlumat verilib.

# Mətbuatda "göyqurşağı"

***Hər bir xalqın tərəqqisində, inkişafında mətbuatın rolu danılmazdır. Mətbuat eyni zamanda milli kimliyin göstəricisidir. Azərbaycanda milli mətbuatın əsası "Əkinçi" qəzeti ilə 1875-ci il 22 İyul tarixində qoyulmuşdur. Bu yolda Həsən bəy Zərdabinin öhdəliyinə böyük vəzifə düşdü. O, qəzetin həm təsisçisi, həm də baş redaktoru idi. Məhz bu səbəbdən mətbuatımızın yaranmasında onun rolu əvəzsizdir. "Əkinçi" qəzetinin cəmi 56 nömrəsi işıq üzü gördü. Lakin buna baxmayaraq, gələcək "davamçılarına" misilsiz töhfələr verdi. Ondan sonra açılan qəzetlər "Əkinçi"ni özlərinə nümunə hesab edirdilər.***




"Min illər boyu insanı, cəmiyyəti kamilləşdirmək missiyası bədii ədəbiyyatın üzərinə düşmüşdür. Mətbuatın yaranması və inkişafı ilə bədii sözün oxucuya çatdırılması prosesi bir az da gücləndi." ("Jurnalistikanın müasir inkişaf meylləri" Bakı-2006, səh.: 14). Göründüyü kimi mətbuat ədəbiyyatla əlaqəlidir. Məhz bu səbəbdən bədii fikirləri mətbuat vasitəsi ilə insanlara ötürmək mümkündür. Eyni zamanda mətbuat yaranmaqla ədəbiyyatımızın da inkişafını sürətləndirdi.

Millətin, xalqın inkişafının təməli uşaqlardan başlayır. Bunun üçün bir çox ziyalılarımız uşaq jurnalları açmaq üçün dəfələrlə səy göstərmişdir. Onlar uşaq mətbuatı yaratmaqla uşaq ədəbiyyatının da tərəqqisinə təkan verməyi düşünürdülər. Nəriman Nərimanov, Sultan Məcid Qənizadə ilə birlikdə "Sovqat" uşaq jurnalının fəaliyyətə başlaması üçün icazə istəyirlər. Jurnalın ayda bir dəfə çıxması nəzərdə tutulurdu. Lakin onların bu təklifi qəbul edilmir. Buna baxmayaraq, nə Nəriman Nərimanov, nə də Sultan Məcid Qənizadə ruhdan düşmür.

Nəriman Nərimanov "Məktəb" jurnalının, Sultan Məcid Qənizadə isə 1896-cı ildə tələbə dostu Həbib bəy Mahmudbəyovla birgə "Nübar" uşaq jurnalının yaradılmasını təklif edir. Redaktor S.M.Qənizadə, naşir isə H.Mahmudbəyov nəzərdə tutulurdu. Lakin çar senzurası tərəfindən bu təkliflər də rədd olunur.

Sultan Məcid Qənizadə "Məktəb" jurnalı ilə bərabər "Çıraq" qəzetinin açılması üçün icazə istəsə də cavabsız qalır. Göründüyü kimi, ziyalılarımız uşaq mətbuatının yaranması üçün əllərindən gələni etməyə çalışırdılar.

Göstərilən səylər 1905-ci il inqilabından sonra öz bəhrəsini verdi. Nəhayət, 1906-cı il 16 aprel tarixində "Dəbistan" jurnalının yaranması ilə Azərbaycanda uşaq mətbuatının əsası qoyuldu. Jurnalın nəşrə başlamasını elm adamları, ziyalılar böyük təntənə ilə qarşıladılar. Jurnalın naşir və redaktorları Əliisgəndər Cəfərzadə və Məhəmmədhəsən Əfəndizadə idi. Digər ziyalılarımız kimi Əliisgəndər Cəfərzadə də jurnalın razılığını almaq üçün çox əziyyət çəkib. Jurnal Bakıda Hacı Zeynalabdin Tağıyevin "Kaspi" mətbəəsində buraxılırdı.

Jurnalın əsas məqsədlərindən biri də uşaqları lap körpəlikdən Vətən sevgisi ilə, vətənpərvərlik ruhunda böyümələrini təmin etmək idi. "Dəbistan" jurnalında valideynlərə kömək məqsədi ilə "Valideynə məxsus vərəqə" də çap olunurdu. Burada ev tərbiyəsindən söz açılırdı. Təəssüf ki, maddi sıxıntılar səbəbindən jurnal bağlanmaq məcburiyyətində qaldı.

Cəlil Məmmədquluzadə, Məmməd Əmin Rəsulzadə və s. kimi ziyalılarımız jurnalın fəaliyyət göstərməsi üçün dəfələrlə xalqa müraciət etdilər. Amma heç bir faydası olmadı. Onu da qeyd edək ki, Mirzə Ələkbər Sabir "Qapandı" şeirini "Dəbistan" jurnalının bağlanmasına həsr etmişdir. "Dəbistan" jurnalı uşaq mətbuatımızda unudulmaz iz qoydu. Eyni zamanda ondan sonra işıq üzü görəcək "Rəhbər", "Məktəb" və s. kimi jurnallar üçün əvəzolunmaz nümunəyə çevrildi. "Rəhbər" jurnalı M.P.Mahmudbəyovun naşirliyi altında cəmi 4 ay fəaliyyət göstərdi. M.P.Mahmudbəyov jurnalın ilk nömrəsində çap olunan "İfadeyi-məram" adlanan baş məqalədə belə qeyd etmişdir: "Məqsədimiz məktəblərimizin müntəzəmliyinə, millətimizin məişət meydanında, elm və mərifət yolunda irəli getməsinə, milli ədəbiyyatdan xəbərdar olmasına əlimizdən gələn qədər rəhbərlik etməkdir." Jurnal pedoqoji xarakterli idi. Az öncə vurğuladığımız məramnamədə də bu mövzu aydın görünür.

"Dəbistan" və "Rəhbər" jurnallarının varisi olan "Məktəb" jurnalı 10 il fəaliyyət göstərmişdir. Bu jurnalın digər jurnallardan fərqi bütün yaş dövrünə aid uşaqlara şamil olunması idi. Burada eyni zamanda uşaqların diqqətini çəkmək üçün müxtəlif rubrikalar təqdim olunurdu. "Tarixi-təbii" rubrikasında əsasən, Həsən bəy Zərdabinin qələminə aid olan materiallardan-flora və faunadan bəhs olunurdu. "Yazı dərsi" rubrikası uşaqlarda inşa yazmaq qabiliyyətini inkişaf etdirirdi. Hətta onları həvəsləndirmək məqsədi ilə ən yaxşı yazılan inşaların növbəti nömrədə dərc olunacağını bildirirdilər. "Lüğəti-məktəb" rubrikası da var idi ki, burda uşaqlara tanış olmayan ərəb-fars mənşəli sözlərin mənaları verilirdi. Bu rubrika əsasən jurnalın son səhifəsində qeyd olunurdu. Bundan əlavə "Atalar sözü", "Məsəllər", "Lətifələr", "Tapmacalar" və s. kimi əyləncəli rubrikalar da təqdim olunurdu.

Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra-1920-ci il 28 aprel tarixində sovet hakimiyyəti quruldu. Bu zaman demokratik ruhlu mətbu orqanların nəşri dayandırıldı, qəzetlərdə, jurnallarda yalnız sovet ideologiyası təbliğ olunmağa başladı. Həmin dövrdə fəaliyyət göstərən mətbuat orqanlarına "Kommunist", "Azərbaycan gəncləri", "Azərbaycan pioneri", "Ədəbiyyat və incəsənət", "Bakı"nı, uşaq jurnallarından "Maarif", "Qırmızı günəş", "Qızıl gənclik", "Məktəb yıldızı", "Göyərçin", "Pioner"i misal göstərə bilərik. Gənc nəslin savadsız olması, abunəçi azlığı uşaq mətbuatının qısamüddətli, fasilələrlə dərc olunmasına səbəb olurdu. Bu göstəricilərin mənfi təsiri uşaq ədəbiyyatından da yan keçmirdi.

Sovet dövründə fəaliyyət göstərən "Qırmızı günəş" jurnalında A.İsrafilbəyov, C.Cəbrayılbəyli, İ.Murtuza, B.Seyidzadənin yazıları çap olunurdu. Həmçinin redaksiya heyəti oxucuları əməkdaşlığa dəvət edirdi.

"Bütün dünyanın işçiləri, birləşin!" cümləsi Maarif jurnalının əsas şüarı idi. Təəssüf ki, cəmi 2 nömrəsi işıq üzü gördü.

"Pioner" jurnalı 1926-cı ildə fəaliyyət göstərməyə başladı. Bu jurnalın digərlərindən fərqli cəhəti o idi ki, uşaqların əl xətti ilə yazılırdı. Jurnal tez-tez Azərbaycan pionerlərinə müraciət edir, onları kəndlərdə, dairələrdə yaşayan savadsız uşaqlara təhsil verməyə çağırırdılar.

"Pioner" jurnalı 1991-ci ildən etibarən "Günəş" adı ilə fəaliyyət göstərdi. Jurnal 1996-cı ildə ilin ən yaxşı uşaq mətbuatı adına layiq görüldü. Rəhbəri araşdırmaçı-jurnalist, tərcüməçi, publisist Vasif Quliyev olan "Günəş" jurnalı hazırda da fəaliyyətini davam etdirir.

Ziyalılarımız həmçinin mətbuat vasitəsi ilə ədəbi nümunələrin unudulmaması və uşaqlara aşılanması üçün çalışırdılar. Bu, Firidun bəy Köçərlinin fikirlərində də öz əksini tapır: "Balalara hədiyyə olaraq millətimizin yaratdığı nağıl və hekayələrdən, məsəl və tapmacalardan və bir çox mənzumələrdən bu məcmuəni tərtib qıldıq ki, onlar unudulub xatirələrdən çıxmasın." (Firidun bəy Köçərli, "Balalara hədiyyə" Bakı-2013)

Bütün klassik uşaq jurnallarının təsisçiləri parlaq gələcək uğrunda mübarizə aparırdılar. Çünki hər bir xalqın inkişaf təməlinin uşaqlardan başladığını dərk edirdilər. Hal-hazırda fəaliyyət göstərən uşaq jurnalları da eyni amal uğrunda fəaliyyətlərini davam etdirirlər.

***Aysel Babayeva,***
*Jurnalistika fakültəsinin*
*I kurs tələbəsi*

# BDU-da Hüceyrə kulturası və genom redaktəsi elmi-tədqiqat laboratoriyası yaradılıb

***İyulun 13-də Bakı Dövlət Universitetinin (BDU) Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin nəzdində Hüceyrə kulturası və genom redaktəsi elmi-tədqiqat laboratoriyası yaradılıb.***

Bitkilərin dəyişkən və əlverişsiz şəraitlərə (abiotik və biotik) uyğunlaşdırılması üçün klassik selektiv metodlardan istifadə edilməsi ölkənin ixrac potensialını azaldır, daxili qida ehtiyaclarının qarşılanmasını çətinləşdirir. Bu da nəticə etibarilə seleksiya istiqamətində aparılan tədqiqatların aktuallığını azaldır. Bu problemlərin həlli istiqamətində qısamüddətli intensiv seleksiya texnologiyalarının tətbiq edilməsinə ehtiyac duyulur. Hazırda mövcud olan intensiv seleksiya texnologiyaları içərisində CRISPR-Cas9, TALENs technology və RNAi daha geniş tətbiq edilir. Qeyd etmək lazımdır ki, göstərilən texnologiyalar əsasında ölkəmizdə seleksiya məhsullarının alınması həyata keçirilməsinə baxmayaraq, bu metodların elmi tədqiqatlara inteqrasiyası - kənd təsərrüfatında müasir molekulyar bioloji metodların tədqiqi və tətbiqi ilə yeni genotiplərin yaradılması istiqamətində laboratoriya infrastrukturunun təkmilləşdirilməsinə ehtiyac var.

BDU-nun nəzdində bu istiqamət üzrə yeni innovativ laboratoriyanın yaradılması müasir texnologiyalar vasitəsilə orqanizmdə yeni əlamətlərin saxlanılması (genom redaktə ilə), yüksək məhsuldarlıq, molekulyar metodlarla iqlim dəyişkənliyinə dözümlülük, stress faktorlarına davamlılıq kimi əlamətləri daşıyan bitki genomlarının hazırlanmasına, bitkiçilikdə müasir biotexnoloji tətbiqlərin transferinə, qida təhlükəsizliyini təmin etmək məqsədilə yeni biotexnoloji metodların inkişaf etdirilməsinə və əmək bazarının tələblərinə uyğun olaraq biotexnologiya sahəsində ixtisaslı mütəxəssislərin hazırlanmasına imkan verəcək.

ETL-in yaradılmasında Kənd Təsərrüfatı Nazirliyi, USAID, FAO, İsrailin "Volcani Center" Aqrar Tədqiqatlar Mərkəzi və Yerusəlim Yəhudi Universitetinin iştirak etməsi BDU-nun təhsil-elm-istehsalat istiqamətində əlaqələrinin genişlənməsinə və elmi ideyaların kommersiyalaşdırılmasına imkan verəcək.

# "Necə nəşr etməli?" mövzusunda növbəti vebinar

***İyulun 21-də Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının təşkilatçılığı ilə Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu çərçivəsində "Jurnal məqaləsini necə yazmalı və düzəlişlərə dair məsləhətlər" ("How to write a journal article and advice on revisions") mövzusunda vebinarın ikinci buraxılışı keçirilib.***

Vebinar "Sage" nəşriyyatının əməkdaşları - nüfuzlu tədqiqatçı redaktorlar Cesika Lipovski, Cenifer Lovie və Məhəmməd Hadem Aslamın iştirakı ilə keçirilib

Beynəlxalq nəşriyyatlarda məqalə nəşrinin müxtəlif aspektlərinə həsr olunan silsilə vebinarların iyul ayı buraxılışında akademik məqalənin yazılış qaydası, tədqiqatın strukturu, əlyazmanı təkmilləşdirmək üçün strategiyalar izah olunub, məqaləyə daxil ediləcək elementlər, eləcə də düzəlişlərin idarə olunması haqqında praktik məsləhətlər verilib.

# BDU-nun inzibati heyətinin və tələbələrinin bir qrupu Şuşada



***İyulun 6-da Bakı Dövlət Universitetinin inzibati heyətinin və tələbələrinin bir qrupu Şuşaya səfər edib.***

Səfərin əsas məqsədi "Şuşa ili" çərçivəsində Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuzun işğaldan azad etdiyi Şuşanı ziyarət etmək, şəhərin tarixi-mədəni irsi, işğal dövründə məruz qaldığı dağıntılar, hazırda icrasına başlanılan yenidənqurma və abadlıq-quruculuq işləri ilə tanış olmaqdır.

BDU-nun əməkdaş və tələbələri Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün heykəllərini, Qala divarlarını, Yuxarı Gövhər Ağa məscidini, Üzeyir Hacıbəyli bağını, Vaqif məqbərəsini, Bülbülün ev-muzeyini, ermənilər tərəfindən vəhşicəsinə dağıdılmış digər mədəniyyət abidələrini, Cıdır düzünü ziyarət ediblər.

Səfər iştirakçıları Vətən müharibəsində şəhid olmuş qəhrəmanların ruhlarını ehtiramla yad edib, qazilərimizə və hazırda xidmətdə olan hərbçilərimizə cansağlığı arzulayıblar.

BDU əməkdaşlarının Şuşaya səfərləri davam edəcək.

# "Əziz Şuşamızı görmək bizim üçün böyük xoşbəxtlik idi"

***Hər insanın həyatında çatmaq istədiyi, həsrətində olduğu arzusu olur. Xalqımızın 30 illik nisgilinə - Qarabağ həsrətinə 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə olunan şanlı Zəfər son qoydu. Biz arzumuza çatdıq. İndi əsas məsələlərdən biri işğaldan azad olunmuş torpaqlarımızda bərpa və quruculuq tədbirlərinin həyata keçirilməsidir. Bu istiqamətdə geniş işlər aparılır. Biz tələbələr Şuşaya səfərimiz zamanı qədim yurd yerlərimizdə böyük quruculuq tədbirlərinin şahidi olduq.***

*Bu fikirləri AZƏRTAC-a müsahibəsində Şuşada səfərdə olmuş, Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsinin III kurs tələbəsi İmran Bayramov bildirib.*

Tələbələrin işğaldan azad olunmuş torpaqlara səfər etməsinin əhəmiyyətindən danışan İ.Bayramov deyib: "Çox şadam ki, universitetin rektoru Elçin Babayevin təşəbbüsü ilə doğma Qarabağa, o cümlədən Şuşa şəhərinə səfər edən tələbələrdən biri də mən oldum. Şuşa səfəri olduqca qürurverici və unudulmaz idi. Yolboyu hər kəs böyük həyəcanla işğaldan azad edilmiş torpaqlarımızı görməyə tələsirdi. Hər kəsin simasında sevinc duyğusu, qürur hissi var idi. Biz azad Qarabağımıza fərəh hissi ilə gedirdik.

...Hamımızın gözlədiyi an gəlib çatdı. Biz işğaldan azad olunmuş Füzuliyə çatdıq. Burada erməni vəhşiliyinin bir daha şahidi olduq. Düşmənin evləri büsbütün dağıtdığını, kənd və şəhərləri yerlə yeksan etdiyini, hər yeri viran qoyduğunu gördük.

Biz Zəfər Yolu ilə irəlilədikcə, bir tərəfdən düşmənin işğal dövründə ərazilərimizdə törətdiyi bədnam əməllərini görüb təəssüf hissi keçirir, digər tərəfdən isə işğaldan azad olunandan sonra qısa zaman ərzində böyük abadlıq, quruculuq işlərini görüb sevinir, qürur duyurduq.

...Şuşaya gəlişimiz heç vaxt yadımdan çıxmaz. Əziz Şuşamızı görmək bizim üçün böyük xoşbəxtlik idi. Bu yerlərin gözəl suyu, havası, təbii mənzərələri bizi valeh etdi, ruhumuzu oxşadı. Biz burada Vaqifin məqbərəsini, Xalq artisti Bülbülün ev-muzeyini, Cıdır düzünü ziyarət etdik, müxtəlif tarixi-memarlıq abidələri ilə tanış olduq. Şuşa, həqiqətən, gözəlliklər məkanıdır".

Şuşa səfərinin xoş təəssüratlar doğurduğunu deyən İ.Bayramov işğaldan azad olunmuş ərazilərimizdə xoşbəxt, firavan həyatın yaradılacağına əminliyini vurğulayıb.

*AZƏRTAC*
*18.07.2022-ci il*

# Şuşada hər qaya parçası igidlərimizin necə vuruşduğunu sükutu ilə söyləyir

***Şuşanın digər adı ilə Pənahabadın təməlini 1752-ci ildə Qarabağ xanı Pənahəli xan qoyub. Şəhər 1992-ci il may ayının 8-də erməni silahlı birləşmələri tərəfindən işğal edilib. 28 illik həsrətdən sonra Azərbaycan Silahlı Qüvvələri tərəfindən 8 noyabr 2020-ci ildə işğaldan azad edilib.***

Şuşa Qarabağın incisi, Azərbaycan mədəniyyətinin beşiyi, gözəlliyi ilə hər kəsi heyran qoyan möhtəşəm bir şəhərdir. Yol boyu qeyri-adi hisslər keçirtməmək mümkün deyil. Sevinc, kədər, qürur hissləri bir-birinə qarışır.






Şuşaya yol Füzuli ərazisindən keçir. Dağıdılmış evlərə, minalanmış ərazilərə baxan hər kəs qəribə hisslər keçirir. Azərbaycan əsgərinin igidliklə bu torpaqları işğaldan azad etməsi, 44 günlük Vətən müharibəsi canlanır insanın gözündə.

Dağların başına dolana-dolana yeni çəkilmiş "Zəfər yolu" ilə gəlib Şuşa şəhərinə çıxdıq və o torpağa ayaq basdıq. Ermənilərin 28 illik "fəaliyyəti" bu əsrarəngiz şəhəri gözəllikdən məhrum edə bilməyib. Bir tərəfdə Şuşa qalasının əzəməti, qədim şəhərin küçələrindən gələn təbiət qoxusu, Şuşanı ağuşuna alan başı dumanlı dağlar, daxili küçələrdə çay daşlarından çəkilmiş hasarlar, qala divarına paralel uzanan yamyaşıl çəmənlik, Şuşanın xoş havası insanın qəlbində qarışıq, sevincli, bəzən də kövrək duyğular yaradır. İlk mənzilimiz Şəhər İcra Hakimiyyətinin binası və "Güllələnmiş büstlər" olur. Şuşanın işğalı zamanı zədələnmiş və sonralar Azərbaycan dövlətinin ermənilərdən pulla alaraq Bakıya gətirdiyi Üzeyir Hacıbəyli, Bülbül və Xan qızı Natavanın heykəlləri yenidən doğma yurduna geri qaytarılıb. Heykəllərin üzərindəki zədələr, güllə izləri erməni vandalizminin bariz nümunəsidir.

Sonra əzəməti ilə göz oxşayan Şuşa qalası istiqaməti ilə irəliyirik. Qalanın üzərində olan Şuşa yazısını gördükcə insanı qürur hissi bürüyür. Qalanın üzəri ilə gəzərkən sağ tərəfdə Xankəndimiz görünür. Gün gələcək biz ora da səfər edib, göz oxşayan təbiətini görəcəyik.

Şuşanın məhəllələri ilə gəzəgəzə yol aldıq Bülbülün ev muzeyinə tərəf. Vaxtilə çay daşlarından tikilmiş, dağıdılmış evlərə heyrətlə baxa-baxa gəlib muzeyə çatdıq. Bülbülün ev muzeyində bərpa işləri gedirdi. Bu səbəbdən evin içərisinə daxil ola bilmədik. Həyətin ortasında Bülbülün yeni heykəli qoyulub. Ondan bir qədər aralıda isə Bülbülün erməni işğalı nəticəsində zədə alan heykəli də saxlanılır.



Şuşa deyiləndə ilk yada düşən Cıdır düzü olur. Muzeydən uzaqlaşıb, Cıdır düzü istiqamətində hərəkətə başladıq. Çox həyəcanlanırdım, şəkillərdən, videolardan gördüyüm Cıdır düzünü görmək mənə nəsib olmuşdu. Cıdır düzü dağlar qoynunda yerləşən, şəhərin yeganə və böyük hamar ərazisidir. Elə bu səbəbdən də ta qədimdən burada Qarabağ igidlərinin cıdır yarışları, çövkən oyunları, Novruz və digər el şənlikləri keçirilib.

O, şəhərin kənarında - Daşaltı dərəsinin yuxarı hissəsində yerləşir. Buradan açılan heyrətamiz mənzərə insanı valeh edir. Cıdır düzünün digər tərəfində üçrəngli bayrağımız vüqarla dalğalanır. Buradan baxanda aşağıda Şuşa, qarşıda isə Xankəndi şəhəri görünür. Ərazi başdan-başa çəmənlik və çöl çiçəklərinə bürünüb. Qarşısında dayandığımız güllələrdən dəlik-deşik olmuş qaya parçaları. Haqq savaşımızın şahidi olmuş bu qayalar igid oğullarımızın Qarabağın bu cənnət guşəsinin hər dağı, hər qaya parçası, hər qarış torpağı üçün necə savaşdıqlarını öz lal sükutları ilə hər kəsə söyləyir.

Şuşada dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini də ziyarət etdik. Məqbərə kompleksində Cıdır düzünə yaxın bir ərazidə dahi şairin məzarı üzərindədir. Muzey-məqbərə kompleksində təmir-bərpa və yenidənqurma işləri də aparılıb. 2022-ci ilin "Şuşa İli" elan edilməsi mədəniyyətimizin beşiyi, Qarabağımızın incisi olan Şuşanın inkişafına böyük təkan verəcək. Dünya 2022-ci ildə mədəniyyət paytaxtımızda baş verən möhtəşəm hadisələrin şahidi olacaq. Bu unudulmaz səfəri təşkil etdiyi üçün başda Elçin Babayev olmaqla BDU rəhbərliyinə öz dərin təşəkkürlərimi bildirirəm.

***Züleyxa Ağaməliyeva***
*Jurnalistika fakültəsinin tələbəsi*

# "Azərbaycan Respublikasının tarixi (1991-2021)": BDU-nun ən yeni tariximizə xidmət kitabı

***Azərbaycan tarixinin çoxçeşidli dövrləri ilə bağlı müxtəlif elmi-tədqiqat əsərləri, monoqrafiyalar, dərsliklər mövcuddur. Lakin etiraf edək ki, bu əsərlərin böyük əksəriyyəti müxtəlif ideoloji təsirlərə məruz qalmış və bir çox halda obyektivlikdən uzaq olmuşdur. Xüsusilə Sovet dövründə meydana gəlmiş tarix kitablarımız hakim kommunist ideologiyasının təzyiqlərindən xilas ola bilməmişdir. Azərbaycanın müstəqillik şəraiti və xüsusilə Ümummilli liderimiz Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi milli düşüncənin bütün istiqamətlərinə yeni, obyektiv baxışı təmin etdi və o cümlədən, milli tariximiz yeni nəşrlərdə öz obyektiv qiymətini tapdı.***




Lap bu günlərdə Bakı Dövlət Universiteti Elmi Şurasının qərarı ilə nəşr edilmiş "Azərbaycan Respublikasının tarixi (1991-2021)" adlı iki cildlik kitab bu sırada çox mühüm və gərəkli tədbirlərdən biridir. Bakı Dövlət Universitetinin təşəbbüsü ilə ərsəyə gəlmiş bu kitabın müəllifi akademik Musa Qasımlı, elmi məsləhətçisi Universitetin rektoru Elçin Babayev, elmi redaktoru professor İbrahim Zeynalov, rəyçiləri BDU-nun dörd fundamental kafedrasıdır. Milli tariximizin ən keşməkeşli formasiyası olan III Respublika dövrünün keçdiyi yolun tarixini əks etdirən bu əsər yeni müstəqilliyimizin fundamental təqdimatı kimi çox böyük maraq doğurmaqdadır.

Yəqin belə bir fikir heç kimdə şübhə doğurmaz ki, Azərbaycan tarixinin çətin dövrləri sırasında müstəqillik illəri ayrıca yer tutur. Ən yeni tariximiz zəngin hadisə və faktlarla meydandadır. Müstəqilliyimizin əldə edilməsinin çətinliyi bir yana, bu müstəqilliyi gözü götürməyən dövlətlərin bizə qarşı yaratdığı süni əngəllər ilk illərdə dövlətçiliyimizi şübhə altına aldı. Yeni Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyev bu dövrün başlanğıcında qəti surətdə bəyan etdi: "Azərbaycanın müstəqilliyi daimidir, əbədidir, dönməzdir və bu yolda hamımız əl-ələ verərək çalışmalıyıq". Heydər Əliyev bu sözləri xalqımızın azadlıq uğrunda yeni mübarizəsinin ən çətin dövründə dedi. Müstəqilliyimizin keşməkeşli bir dövrünə - 1991-2021-ci illərinə həsr edilmiş "Azərbaycan Respublikasının tarixi"nin avantitul səhifəsində bu sözlərin yer alması heç də təsadüfi deyil. Müstəqilliyimizin əbədi və daimi olması o vaxt da, indi də qarşımızda duran ən böyük vəzifədir. Məsələnin bu cəhətini xüsusi nəzərə alan kitab tərtibatçıları Prezident İlham Əliyevin 30 illik torpaq həsrətimizə vaxtı gələndə mütləq son qoyulacağını ifadə edən sözlərini də kitabın avantitul səhifəsinə köçürmüşlər: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır; ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Tarix göstərdi ki, Prezident İlham Əliyevin bu müqəddəs azadlıq vədi özünün gerçək həllini tapdı. Və "Azərbaycan Respublikasının tarixi" kitabının birinci cildində azadlığa gedən bu yolun dolanbacları ciddi elmi araşdırmalarla gənc nəslə təqdim olunur. Bu dövr hansı çətinliklərdən keçdi, milli taleyimizin ilk illərində səbatsız hakimiyyətin yaratdığı xaosdan necə çıxdıq, 1992-ci ildə dövlət büdcəsində cəmi üç yüz milyon manatı olan bir ölkənin iqtisadiyyatı necə dirçəldi, xəbis ermənilərin tapdaq altına saldığı torpaqlarımızı necə azad etdik və s. kimi yüzlərlə suala cavab verən və bu cavabı gənc nəslə çatdırmağı əsas məqsəd sayan bir tarix kitabı yazmalıydı. Ən yeni tarix!

Məzmununa və missiyasına görə yüksək mənəvi dəyər daşıyan bu iki cildlik ən müasir poliqrafik formatda nəşr olunub. Mükəmməl məzmunu, mükəmməl mündəricəsi və mükəmməl tədqiqat xarakteri ilə seçilən "Azərbaycan Respublikasının tarixi" kitabının ideya müəllifi, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev əsərə "Ön söz"ündə yazır: "Bakı Dövlət Universitetinin təşəbbüsü ilə iki cilddə hazırlanmış "Azərbaycan Respublikasının tarixi" kitabı tariximizin son 30 illik dövrünü - 1991-ci ildə dövlət müstəqilliyimizin yenidən bərpasından sonra dünya şöhrətli siyasətçi, görkəmli ictimai-siyasi xadim, xalqımızın Ümummilli lideri Heydər Əliyevin memarlığı ilə qurulan müstəqil Azərbaycan Respublikasının tarixini əhatə edir". Kitaba "Ön söz"dən daha bir misal: "Bakı Dövlət Universitetində tarixi faktlar və onların müqayisəli təhlili əsasında ərsəyə gətirilmiş bu kitab müstəqilliyin əldə edilməsi, qorunması və möhkəmləndirilməsi uğrunda mübarizəni, müasir Azərbaycanın yüksəliş və zəfər mərhələlərini əhatə edir. Hesab edirik ki, bu gün qarşımızda duran əsas vəzifələrdən biri də bu mübarizə, yüksəliş və zəfər tarixinin, Azərbaycanın davamlı inkişaf perspektivlərinin daha yaxından öyrənilməsi, təbliğ olunması və gələcək nəsillərə ötürülməsindən ibarətdir. Şübhəsiz ki, "Azərbaycan Respublikasının tarixi" kitabı bu istiqamətdə böyük əhəmiyyət kəsb edir".

Kitabın I cildinin üz qabığındakı "1991-2003" rəqəmləri aydın göstərir ki, bu cild müstəqilliyimizin ən çətin, xaotik dövrünü əhatə edir. On dörd fundamental fəsildən ibarət olan bu cildin əsas mahiyyətində dövlət müstəqilliyimizin bərpası ərəfəsindəki beynəlxalq vəziyyət, Heydər Əliyevin Naxçıvandan başlanan xilaskarlıq siyasəti, o illərdə yaranan anarxiya və xaosun səbəbləri və günahkarları, Heydər Əliyevin yeni dövlətçilik konsepsiyası, bu gün də bizim iqtisadi həyatımıza işıq tutan "Əsrin müqaviləsi", Konstitusiyamız, neft fenomeni, demokratik islahatlar və s. kimi məsələlər öz əksini tapıb.

Kitabın 2003-2021-ci illəri əhatə edən II cildindəki avantitul səhifələrində də Heydər Əliyevin və İlham Əliyevin dövlət quruculuğuna bağlı müdrik fikirləri yer alıb. Prezident İlham Əliyevin burada qeyd olunan fikirləri zamanın çağırışı kimi səslənir: "...biz 17 il ərzində doğrudan da tarixi uğurlara imza atdıq. Bu dövrü xarakterizə etmək üçün çox vaxt lazımdır: Hər şey göz qabağındadır. Əminəm ki, bizim tarixçilərimiz, politoloqlarımız, alimlərimiz bu dövrü də məqalələrdə, kitablarda, dərsliklərdə düzgün əks etdirəcəklər". "Azərbaycan Respublikasının tarixi (1991-2021)" kitabını Bakı Dövlət Universiteti Prezidentin bu çağırışına cavab olaraq ərsəyə gətirmişdir.

Kitabın II cildinin mündəricəsində Azərbaycanda son 20 ildə baş verən hadisə və faktlarla bağlı 27 qiymətli fəsil öz əksini tapmışdır. Bu fəsillərin ilk sırasında İlham Əliyevin Prezident seçildiyi 15 oktyabr 2003-cü il faktı dayanır. İlham Əliyevin Prezidentliyə başladığı ilk çağların ümumi mənzərəsi - ictimai-siyasi şərait, torpaqlarımızın işğaldan azad edilməsi məqsədinin prioritetliyi, bütün sahələrdə özünü göstərən yeni inkişaf mərhələsi kimi məqamlar təhlilə cəlb olunur. Burada Heydər Əliyev Fondunun tarixi missiyası, 2008-ci ilin Prezident seçkiləri, dövlətçiliyin inkişaf tempi, xarici siyasətindəki uğurlar, 2016-cı ilin Aprel döyüşləri və bu döyüşlərin sonrakı Vətən müharibəsinə təsiri, 2018-ci ildəki Prezident seçkiləri, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı dövlət tədbirləri, Ermənistanın tükənməyən təxribatları və buna qarşı mübarizə, Vətən müharibəsinin başlanması və gedişi kimi tarixi hadisələr öz əksini tapmışdır.

Qürurverici faktdır ki, "Azərbaycan Respublikasının tarixi" Vətən müharibəsinin hər məqamını - ordumuzun ayrı-ayrı rayon və kəndlərimizi birbaşa azad etməsi hadisələrini həm tarixi faktlarla, həm də hər sətrindən qürur duyulan bir üslubda bizə təqdim edir. Burada Cəbrayılın, Hadrutun, Füzulinin, Qubadlının, Şuşanın, Ağdam, Kəlbəcər və Laçının işğaldan azad edilmə prosesi yüksək elmi və bu yerdə mütləq lazım olan publisistik üslubda oxucuya çatdırılır.

Kitabda "Vətən müharibəsində qazanılan qələbənin səbəbləri və əhəmiyyəti" ayrıca tədqiq olunur. Bu səbəblər, əlbəttə, Prezident, Ali Baş Komandan İlham Əliyevin xarici jurnalistlərə verdiyi saysız-hesabsız müsahibələrində, Azərbaycan və dünya mediası səhifələrində elə həmin günlərdə öz əksini tapmışdır. Amma "Azərbaycan Respublikasının tarixi" kitabının vacibliyi ondadır ki, bu əsər həmin səbəblərlə bağlı faktları son dərəcə dəqiq və bacarıqla ümumiləşdirib sabahımıza ünvanlanan möhtəşəm bir nəşr formatına salmışdır.

Ordumuzun, onun Ali Baş Komandanının, Xalq birliyinin səbəb olduğu müzəffər qələbəmiz yağı düşməndən intiqam faktıdır. Bu kitabda ordu quruculuğuna, əsgər təlimlərinə, xalqın birliyinə o qədər diqqət yetirilmişdir ki, bu orduya, oxucuda bu xalqa heç bir düşmən qüvvə bata bilməz qənaəti hasil olur.

Kitabda tarixi qələbəmizdən sonra ölkəmizdə baş verən uğurlu hadisələr, Türk dünyasının birliyini nümayiş etdirən Şuşa tədbirləri, düşmənin gözünə ox kimi batan Hərbi Qənimətlər Parkı, Şuşanın mədəniyyət paytaxtı elan edilməsi və Türkiyə ilə imzalanan tarixi birlik Bəyannaməsi, işğaldan azad olunmuş torpaqlarımızda sürətli quruculuq işləri kimi faktlar bugünkü və sabahkı gənclərimiz qürurla oxuyub, öyrənib fəxr edəcəklər.

Əlbəttə, Azərbaycanın öz torpaqlarının işğaldan azadlığı uğrunda apardığı ədalətli Vətən müharibəsi ərəfəsində Prezident İlham Əliyevin beynəlxalq dünyada göstərdiyi diplomatik gedişlər Azərbaycanın və xarici dövlətlərin media sistemində kifayət qədər işıqlandırılmış və bu ətrafdakı faktlar öz vaxtında mediaya çıxarılmışdır. Lakin qeyd olunan məsələlərlə bağlı faktların, Prezidentin böyük diplomatiyasının bütün anları bu tarix kitabında mütləq ümumiləşdirilməli idi; media səhifələrindən tarixdə yaşayacaq bir nəşr formatına köçürülməli idi. Məsələn, Azərbaycan Prezidentinin 2019-cu il oktyabrın 3-də Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq diskussiya iclasında - dünyanın ən böyük dövlət başçılarının toplantısında Ermənistanın Baş naziri N.Paşinyanın bir vaxt Şuşanın Cıdır düzündə quldur dəstələrinin üzvləri ilə rəqs edərkən "Qarabağ Ermənistandır və nöqtə" kimi həyasız bir cümləsinə cavab olaraq kəskin şəkildə demişdi: "Ermənistanın Baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" Forumu çərçivəsində müvafiq cavab verilibdir. Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə. Birincisi, yumşaq şəkildə desək, bu, yalandı. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

"Azərbaycan Respublikasının tarixi"ni böyük zəhmət və məsuliyyətlə kitaba çevirmiş müəllifin - Musa Qasımlının bu böyük əsərə son abzası: "2003-2021-ci illərdə Azərbaycan Respublikasının siyasi tarixinin başlıca yekunu qüdrətli və beynəlxalq aləmdə yüksək nüfuzu olan dövlətin yaradılması, işğal altındakı ərazilərin azad edilməsidir. Keçilən yoldan alınan ibrət dərsi ondan ibarətdir ki, Azərbaycan millətinin tərəqqisinin və qarşıya qoyduğu məqsədlərə çatmasının təməlində minilliklərdən keçib gələn milli-mənəvi köklərə dayanaraq müasirləşmək, vətənsevərlik, təbii sabitlik, güclü dövlət və qüdrətli dövlət rəhbəri dayanır. Elə buna görə də Prezident İlham Əliyevin aşağıdakı fikirləri Azərbaycan dövlətinin və millətinin gələcək inkişafının başlıca formuludur: "Yenilik, inkişaf, güc - bunlar əsas amillərdir: Bir də Vətən sevgisi". Torpaqlarımızı qanı ilə, canı ilə yağı düşməndən azad edən, hər birimizin 30 illik yurd həsrətimizə son qoyan şəhidlərimiz, qazilərimiz, bütövlükdə ordumuz bu kitabın baş qəhrəmanıdır. Ona görə də "Azərbaycan Respublikasının tarixi (1991-2021)" bütöv bir Azərbaycan kitabıdır.

***Nizami CƏFƏROV,***
*akademik*
***Cahangir MƏMMƏDLİ,***
*professor*
*"525-ci qəzet"*
*15 iyul 2022-ci il*

# Postmüharibə dövründə informasiya savaşı

## *Xalqımız 30 illik həsrətə 44 günlük Vətən müharibəsi ilə son qoydu*

***İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) geniş tətbiqi informasiya müharibəsi məsələsinə diqqət yetirməyi ön plana çıxarır.***

İnformasiya müharibəsi milli təhlükəsizliyin əsasını təşkil edir. Akademik Rasim Əliquliyevin təbirincə desək, "İKT sürətlə inkişaf edərək cəmiyyətin bütün fəaliyyət sferalarına dərindən nüfuz edir. Bunun nəticəsi olaraq, informasiya cəmiyyətinin formalaşdığı müasir dövrdə informasiya təhlükəsizliyi milli təhlükəsizlik və onun ayrı-ayrı komponentləri ilə sıx qarşılıqlı əlaqədardır".

Şübhəsiz, informasiya insanların əhvalına da güclü təsir edir, onları yönəldir. Tanınmış fizik Pyotr Kapitsa informasiyanın təlükəsizliyinə diqqət çəkərək yazırdı: "Kütləvi informasiya vasitələri-kütləvi məhv vasitələrindən daha təhlükəlidir". Bu təhlükəni görən inkişaf etmiş ölkələr informasiyaların təhlükəsizliyinə xüsusi diqqət yetirir.

Bədnam qonşumuz Ermənistan başda olmaqla, Azərbaycanı gözü götürməyənlər informasiyadan istifadə etməklə həmişə bir qayda olaraq bizi təhdid etməyə cəhd göstərib. Bu təhdid tək indi yox, həmişə olub.

Xalqımız 30 illik həsrətə 44 günlük Vətən müharibəsi ilə son qoydu. Sentyabrda ordumuz tərəfindən aparılan müharibədə işğal altındakı torpaqlarımız azad olundu. Bu müharibədə qəhrəman Azərbaycan Ordusunun üç min nəfərə yaxın hərbçisini şəhid verdi. Şəhidlərimiz bizim əyilmiş qəddimizi dikəltdi. İndi biz dünyanın nəzərində məğrur, qalib xalq kimi tanınırıq.

Həm hərbi, həm də siyasi cəhətdən məğlub olan Ermənistan gücünü verib informasiya müharibəsinə. Keçən ilin iyul ayında baş vermiş Tovuz hadisələri yaddaşımızdan silinməyib. İyulun 12-də Ermənistan Silahlı Qüvvələri Tovuz rayonunda yerləşən mövqelərimizi artilleriya atəşinə tutdu. Böyük məkrlə bugünəcən yalana həqiqət donu geyindirməyi bacarmış Ermənistan bu dəfə də Azərbaycanı günahlandırdı. Guya bizim əsgərlər Ermənistanın dövlət sərhədini pozub. Amma bu dəfə dünya ictimaiyyəti bu yalana inanmadı. Əksinə, bir sıra dövlətlər Azərbaycanı müdafiə etdi. Bu da Azərbaycanın öz həqiqətlərini dünyaya inamla çatdırılmasının nəticəsi idi.

2020-ci il iyulun 14-15-də gecə saatlarında Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilən aksiya cəmiyyətimizdə vətənpərvərlik ruhunun yüksək olduğunu bir daha dünyaya nümayiş etdirdi. Ən əsası, xalq nümayiş etdirdi ki, torpaqla bağlı heç nəyə güzəştə getməyəcək və hakimiyətin ətrafında sıx birləşərək dövlətinin müdafiəsinə qalxacaq.

Həmişə olduğu kimi, Kreml yenə də özünün forpostuna dəstək verməkdə davam edir. Tovuz hadisələri baş verəndən dərhal sonra, iyulun 17-dən etibarən "İl-76" təyyarəsi ilə Rusiyadan İran vasitəsilə Ermənistana silahların daşınması həyata keçirildi. Və bu proses indinin özündə də davam edir. Bu isə Azərbaycan ictimaiyyətini, dövləti ciddi narahat edir. Rusiyanın yalana söykənən izahı bizi qane etmir, çünki təyyarə ilə daşınan yüklərin tikinti materialları olduğu deyilsə də, bəzi informasiya saytları yükün silah olduğunu yaymışdı. Hətta Rusiyanın ermənipərəst mövqeyi ilə seçilən "Regnim" informasiya agentliyi də Stanislav Tarasovun Rusiyanın Ermənistana silah göndərilməsindən bəhs edən 4 sentyabr tarixli "Dağlıq Qarabağın yeni ümidləri" adlı məqaləsini yaymaqla yalanın üstünü açmışdı. Elə buradaca qeyd edək ki, Rusiya 2010-cu ildən 2018-ci ilədək Ermənistana 50 min ton silah verib.

Bu gün informasiya müharibəsi İnternet məkanında daha çox vüsət alıb. Ermənistan bu vasitələrdən istifadə etməklə ordumuzun ünvanına böhtanlar yağdırır, insanlar arasında çaşqınlıq yaratmağa çalışır. Ermənistanla Azərbaycan arasındakı informasiya qarşıdurması son vaxtlar daha intensiv xarakter alır. Bu qarşıdurmada düşmən məqsədinə çatmaq üçün hər cür yalana, riyakarlığa əl atır. AMEA İnformasiya Texnologiyaları İnstitutunun əməkdaşı İradə Ələkbərova informasiya qarşıdurmasının məqsədini belə izah edir: "İnformasiya qarşıdurmasında əsas məqsəd qarşı tərəfin informasiya da daxil olmaqla, bütün növ resurslarına təsir göstərməkdir. İnformasiya qarşıdurmasının effektivliyinin əsas meyarı kimi qarşı tərəfə məxsus şəbəkə və kommunikasiya texnologiyalarına, nəhayət, kompüterlərə icazəsiz müdaxilələr nəzərdə tutulur. Digər tərəfdən, informasiya qarşıdurmasında demoqrafiya təbliğat, "beyinlərin yuyulması", ictimai rəyin və şüurun manipulyasiyası və s. üsullardan geniş istifadə edilir".

Bu gün informasiya silahı dağıdıcı silahlardan qətiyyən geridə qalmır. Odur ki, indiki şəraitdə dövlətlər öz informasiya sistemlərini qoruyub saxlamaqla düşmənin informasiya sistemini dağıtmağa çalışırlar.

Etiraf edək ki, əvvəllər informasiya müharibəsində biz çox vaxt ermənilərə uduzurduq. Bu o demək deyil ki, ermənilər təbliğatda bizdən güclü idilər, sadəcə biz zəif idik, həm də operativ deyildik. Uzun illər xaricdə məskunlaşmış həmvətənlərinin köməyi onların təbliğat işinə yarıyırdı. Bizim dünyaya çıxan təbliğatımız isə son 15-20 ildə formalaşmağa başladı.

Hansı ölkəyə ayağı dəyirsə, erməni mütləq orada öz varlığını gözə soxmağa çalışır. Uzağa getməyək, 2018-ci ildə Fransanın Desin-Şarpio şəhərində "Fransada Artsax (Qarabağ) günləri" keçirərək, Qarabağ haqqında film nümayiş etdirdi. Ermənistanın "All Armenia" informasiya agentliyi yalan-doğru belə bir informasiya yaydı ki, ABŞ-ın Kaliforniya ştatının Qlendeyl şəhərində küçələrdən birinə Artsax (Qarabağ) adının verilməsi razılaşdırılıb. Üzdə özünü bizə dost kimi təqdim edən qonşu İranda küçələrdən biri Azərbaycan türkünü qətlə yetirən Andranikin adını daşıyır.

Bu gün isə Ermənistan sosial şəbəkələrdə hay salır ki, Azərbaycan Qarabağda onların hüquqlarını pozur. Və bu barədə beynəlxalq təşkilatlara kömək üçün müraciət edir. "Aze Voice"nin ("Azərbaycanın səsi") məlumatına görə, qondarma respublikanın qondarma xarici işlər naziri Masis Mayılyan beynəlxalq təşkilatlara göndərdiyi məktubda yazır ki, guya Azərbaycan hökuməti onları blokadaya alıb və insan hüquqlarını pozur. Ağ yalan! Qışqıra-qışqıra danışmaq, yalan uydurmaq bu xalqın xislətindədir. Beş bir milyon azərbaycanlı qaçqın və köçkünün hüquqlarını kim pozub? Yeri gəlmişkən, qeyd edək ki, həmin qondarma nazir keçən ilin yanvarında "RusArminfo"ya müsahibəsində demişdi ki, "Artsax" heç bir şəraitdə Azərbaycanın tərkibində ola bilməz.

Əminliklə demək olar ki, artıq bu gün Azərbaycan informasiya müharibəsində Ermənistanı üstələməyə başlayıb. Xüsusilə də 44 günlük müharibədə əldə olunan böyük qələbədən sonra beynəlxalq təşkilatların, aparıcı dövlətlərin Azərbaycana münasibəti müsbət mənada xeyli dəyişib. Biz bunu dünyada Xocalı soyqırımının builki anım mərasimlərinin fərqli qaydada keçirilməsi zamanı da gördük. Bir nümunəyə diqqət yetirək. Yaponiyada Tokio sakinlərinə üzərində "Xocalıya ədalət" yazılmış tibbi maskalar paylanılıb. Hətta düşmən ölkənin özündə də Xocalı soyqırımını pisləyən açıq gözlü, hadisələrə düzgün qiymət verən insanlar var. Onlardan biri də erməni yazıçısı Anna Rayatyandır. Onun Xocalı soyqırımı barədə dedikləri Ermənistanı şoka salıb: "Xocalı soyqırımı olub və bunun üçün quldurlar cavab verməlidirlər. Onlar əsgər deyillər, cinayətkar və qatildirlər: Levon Ter-Petrosyan, Vazgen Sarkisyan, Robert Koçaryan. Onların hamısı uşaq və qadın qatilləridir". O həmçinin deyib ki, Qarabağda azərbaycanlılara qarşı törədilən vəhşiliklərə görə bir erməni olduğu üçün utanır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən təşkil olunan "Xocalıya ədalət" beynəlxalq kampaniyası soyqırımın dünyada tanınmasında çox böyük işlər görür. Aparılan məqsədyönlü təbliğatın nəticəsi olaraq Xocalı soyqırımını artıq 18 ölkə tanıyır.

Yaxşı deyiblər, qalibi mühakimə etmirlər. İkinci Qarabağ müharibəsindəki müzəffər qələbədən sonra dünya Azərbaycanın haqq səsini eşitməyə başlayır. Təsadüfi deyil ki, indi Ermənistanın böyük qardaşı Rusiyanın siyasi elitasının bəzi nümayəndələri də mətbuat səhifələrində, telekanallarda, internet saytlarında Azərbaycanın tarixi qələbəsini alqışlayır, haqqı müdafiə edirlər.

Maksim Şevçenko (jurnalist, politoloq): "Azərbaycan xalqı Ermənistan tərəfindən təxminən 30 il əvvəl işğal olunmuş Qarabağ torpaqlarını azad etdi. Azərbaycan bu müharibədə ədalətli qələbə qazandı. İkinci Qarabağ müharibəsində Azərbaycanın Böyük qələbəsi bəşəriyyətin tarixini dəyişəcək".

İqor Korotçenko (Rusiyada nəşr olunan "Milli müdafiə" jurnalının baş redaktoru): "Düşünürəm ki, bu gün heç kimin Qarabağın sahibi olması ilə bağlı xəyalları yoxdur. Qarabağ bölgəsi Azərbaycanın bir hissəsidir. Dağlıq Qarabağın hər hansı statusundan söhbət gedə bilməz. Azərbaycan üçün Qarabağın inkişafı əsas milli prioritetlərdən biridir".

Aleksandr Perenjiyev (rusiyalı politoloq): "Azərbaycan tərəfdən Ermənistana heç bir təcavüz olmayıb. Əksinə, Ermənistan Azərbaycnın torpaqlarını işğal edib. Azərbaycan çalışır ki, Ermənistan tərəfindən işğal olunmuş torpaqları azad etsin. Həqiqət Azərbaycanın tərəfindədir".

Sergey Markov (Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, politoloq): "Qarabağdakı qondarma rejimin bayrağının Rusiya Müdafiə Nazirliyinin saytında nümayiş olunması qəbuledilməzdir".

Yevgeni Mixaylov (Beynəlxalq münaqişələr üzrə ekspert): "Dağlıq Qarabağ münaqişəsi" ifadəsi artıq işlədilməməlidir. Qarabağ Azərbaycandır və nida!"

Baxmayaraq ki, dünya Azərbaycanın Vətən müharibəsindəki qələbəsinə haqq qazandırır, yenə də Ermənistanda separatçı qüvvələr Üçüncü Qarabağ müharibəsindən danışır və "Artsax"ın (Qarabağın) "işğaldan" azad edilməsini prioritet məsələlərdən biri olduğunu deyirlər. "Qalanews" xəbər portalı erməni generalı Arşavir Qaramanyanın Feysbuk vasitəsilə erməni xalqına ünvanladığı müraciəti yayıb: "Əziz dünyada yaşayan ermənilər, bugünkü siyasi gücün qeyri-milli və dövlət əleyhinə idarəçiliyi sayəsində biz Qarabağı itirdik. Artıq yeni müharibəyə başlamaq lazımdlr. Qarabağdakı ermənilər bu müharibəyə hazırdırlar". Generalın bu statusu heç də birmənalı qarşılanmayıb. Müraciətə yazılmış şərhlərdə generalla razılaşmayanlar, ordunun yoxluğu barədə fikir söyləyənlər, hətta təhqiramiz sözlər yazanlar az deyil. Armen Lalayan adlı erməni lap baltanı kökündən vurub: "Hansı ordu? Sizin tərifləndiyiniz o ordu cəmi 44 günə hər yeri təhvil verdi. Əgər rus olmasaydı, Azərbaycan əsgəri İrəvana qədər gələcəkdi".

Mütəxəssislərin qənaətincə, təbliğat və kommunikasiya hərbi strategiyanın bir hissəsidir. Müasir müharibə əvvəlki illərin müharibəsindən seçilir. Döyüş əməliyyatları ilə yanaşı, informasiya savaşına da diqqət xeyli artıb. Düşmən tərəfin bəzən elə informasiyaları olur ki, onu qarşı tərəf geniş yaymalı olur, çünki onlar özləri həmin informasiyanı ya silir, ya da yayılmasının qarşısını alır. Məsələn, bu ilin mart ayında Ermənistan vətəndəşı İsxan Verdiyan özünün Feysbuk səhifəsində Prezident İlham Əliyevə müraciət yerləşdirib. O müraciətdə prezidentin diqqətinə çatdırılır ki, Robert Koçaryan və Serj Sarkisyan Azərbaycan vətəndaşıdırlar, onlar özləri üçün ənənəvi banditizm metodları ilə hərəkət edərək Azərbaycana və Ermənistana ziyan vurmaqda davam edirlər. Verdiyan Prezident İlham Əliyevdən xahiş edir ki, onların Azərbaycana ekstradisiyası üçün bütün zəruri tədbirlər görsün.

Hazırda Ermənistanda vəziyyət ağırdır, xaos bütün ölkəni bürüyüb. İstər baş nazir Nikol Paşinyan, istərsə də onun kreslosuna göz dikənlər vəziyyətdən çıxış yolu tapa bilmirlər. Heç Soros da kömək əlini uzatmır.

Bu yazını isə professor Qulu Məhərrəmlinin bəhs etdiyimiz mövzu ilə bağlı fikrini diqqətə çatdırmaqla yekunlaşdırıram: "Göründüyü kimi, müasir texnoloji vasitələr mürəkkəb və çox dəqiq işlənmiş informasiya müharibəsi aparmağa imkan verir. Yalnız bu vasitələrə mükəmməl yiyələnmiş dövlətlər onları çevik təbliğat texnologiyaları ilə birləşdirərək uğurlu informasiya müharibəsi apara, özlərini hər cür psixoloji hücumlardan müdafiə edə və milli təhlükəsizliklərini qoruya bilərlər".

**_Akif Rüstəmov_**
*Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının dosenti*

*"525-ci qəzet"*

# BDU tələbələri "AzerGold" QSC-nin "Çovdar" filiz emalı sahəsində

*İyulun 5-də Bakı Dövlət Universitetinin Geologiya fakültəsinin bir qrup professor-müəllim və tələbə heyəti "AzerGold" QSC-nin "Çovdar" filiz emalı sahəsində tanıtım-təcrübə səyahətində olub.*

Tanıtım BDU ilə "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti arasında imzalanmış 2022-2023-cü illər üzrə fəaliyyət planına müvafiq olaraq həyata keçirilib.



Səyahətdə 7 nəfər professor-müəllim və 11 tələbə iştirak edib. Səyahət zamanı tələbə və əməkdaşlar "Çovdar" qızıl mədənində, filizlərin qırılması və aşındırılması meydançalarında, filiz və kern anbarlarında, həmçinin filiz emalı zavodunda olub, prosesləri izləyiblər. Yekunda tanıtım-təcrübə səyahəti ilə bağlı toplantı keçirilib. Toplantıda "AzerGold" QSC-nin İnsan resurslarının idarəolunması şöbəsinin baş mütəxəssisi Valid Əliyev, şirkətin aparıcı geoloq-mühəndisləri Məmmədağa Talıbov, Sultan Cəfərov, Ramil Şahməmmədov, fakültə dekanı Mamoy Mansurov, dekan müavini İlqar Quliyev Ümumi və tarixi geologiya kafedrasının müdiri Nazim İmamverdiyev, Kristalloqrafiya, mineralogiya və geokimya kafedrasının müdiri Kərim Rəhimov, Faydalı qazıntılar kafedrasının müəllimi Azər Hüseynov, Hidrogeologiya və mühəndis geologiyası kafedrasının müəllimi Ələkbər Mirzəyev və başqaları çıxış edərək öz fikirlərini bölüşüblər.

# Biologiya fakültəsinin tələbələri "Azecolab Company" şirkətində təcrübədə

*İyulun 29-dan Bakı Dövlət Universitetinin Biologiya fakültəsinin Biologiya ixtisası üzrə III kurs tələbələri Elşən Əliyev və Sevinc Allahverdiyeva "Azecolab Company" şirkətində yay təlim-təcrübə proqramında iştirak edirlər.*



BDU ilə "Azecolab Company" şirkəti arasında imzalanmış ikitərəfli saziş çərçivəsində tələbələrin mütəmadi olaraq tədqiqat və təcrübi işlərə cəlb edilməsi əsas prioritet istiqamət sayılır. Qeyd olunan istehsalat təcrübəsi müddətində tələbələrə mikrobiologiya və ekotoksikologiya sahəsində təcrübi vərdişlər aşılanır, bu sahələr üzrə tədris aparılır. Təcrübə proqramı dövründə tələbələr yeni avadanlıqlardan istifadə edərək müasir metodların tətbiqi ilə ekspress testlərlə analizlər aparırlar. Müəssisənin mütəxəssisləri tələbələri gündəlik texniki-təhlükəsizlik qaydaları və ekoloji monitorinqlərin aparılması barədə təlimatlandırırlar.

Təcrübə proqramının iki ay davam etməsi nəzərdə tutulur.

# BDU-da "Yeni başlayan proqramçılar" adlı müsabiqə keçirilib

*İyulun 27-də Bakı Dövlət Universitetində Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin könüllülərinin təşkilatçılığı ilə "Yeni başlayan proqramçılar" adlı müsabiqə keçirilib.*



Müsabiqədə I və II kurs tələbələri komanda şəklində 5 mərhələdə kompüter elmləri üzrə nəzəri biliklərini sınaqdan keçirib, daha sürətli və düzgün proqramlar yazmağa çalışıblar. Son mərhələdə isə hər komanda iki yarımkomandaya bölünərək kodlaşdırma-dekodlaşdırma prinsipi ilə bir-birinə verilmiş sözləri çatdırmağa çalışıb.

Müsabiqənin nəticələrinə əsasən, "GG CODE" komandası 1-ci, "Creative Club" komandası 2-ci, "Cool As Code" komandası isə 3-cü yeri qazanıb.

Çempion komanda sertifikat və gələcəkdə istifadə edə biləcəkləri kuponlarla təltif olunub. Digər iki komandanın üzvlərinə isə həvəsləndirici kuponlar verilib.

# Bu il BDU-nun SABAH qruplarını 257 məzun bitirir

*Bakı Dövlət Universitetinin SABAH qruplarında 2021-2022-ci dərs ilində 9 ixtisas (Psixologiya, Hüquqşünaslıq, Kompüter elmləri, Coğrafiya müəllimliyi, Fizika müəllimliyi, Biologiya müəllimliyi, Tarix müəllimliyi, Riyaziyyat müəllimliyi, Kimya müəllimliyi), 29 qrup üzrə 728 tələbə təhsil alıb.*

Azərbaycanın 12 ali məktəbindəki SABAH qrupları arasında ən çox ixtisas və tələbə sayı məhz BDU-dadır. Bu tədris ilində BDU-nun SABAH qruplarını 257 məzun bitirir.

Ümumilikdə son 6 ildə BDU-nun SABAH qruplarından 1375 tələbə məzun olub.

Ötən il BDU-nun SABAH məzunlarından 155 nəfəri Azərbaycanda, 17 nəfəri isə xaricdə magistraturaya daxil olub. BDU-nun SABAH qrupunun ötənilki məzunlarından 23 nəfəri yerli və xarici doktoranturalarda təhsil alır.

Qeyd edək ki, SABAH ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsi, ali təhsil sistemində yeni və fərqli bir mühitin yaradılması, savadlı, bacarıqlı və hazırlıqlı tələbə yetişdirilməsi, əmək bazarının artan tələblərinə müvafiq olaraq kadr hazırlığının təmin edilməsi məqsədilə 2013/2014-cü tədris ilində yaradılıb.

# BDU-nun magistraturasına qəbul olanların qeydiyyatı başa çatıb

2022/23-cü tədris ili üçün Bakı Dövlət Universitetinin (BDU) magistratura pilləsinə qəbul olanların qeydiyyatı başa çatıb. Magistratura təhsil səviyyəsinə 932 nəfər qəbul olunub.

BDU-nun magistraturasına qəbul olanlardan 300 nəfəri kişi, 632 nəfəri qadındır. Onlardan 732 nəfər Azərbaycan bölməsinə, 112 nəfər rus bölməsinə, 88 nəfər isə ingilis bölməsinə qəbul olunub.

# BDU-nun 220 tələbəsi "Vəkil olmaq istəyirəm" adlı yay məktəbində



*Azərbaycan Respublikasının Vəkillər Kollegiyası və Gənclər Fondunun birgə təşkilatçılığı ilə iyulun 15-dən başlayan "Vəkil olmaq istəyirəm" adlı yay məktəbi davam edir.*

Bir ay davam edəcək yay məktəbinin əsas məqsədi gənc hüquqşünas tələbələrin yay tətilinin səmərəli təşkil edilməsinə töhfə verməkdən ibarətdir.

Tədbirə ümumilikdə 13 yerli və xarici universitetdən 294 tələbə qatılıb. Onlardan 220-si BDU-nun Hüquq fakültəsinin tələbələridir.

Yay məktəbində prosessual sənədlərin tərtib edilməsi, hüquqi yazı, vətəndaşlarla müsahibələrin keçirilməsi, məsləhətlərin verilməsi qaydaları və natiqlik qabiliyyəti də daxil olmaqla, çoxsaylı mövzular üzrə təlimlər təşkil ediləcək.

Məktəbi uğurla başa vuran hüquqşünas tələbələrə sertifikatlar təqdim olunacaq, proqramı fərqlənmə ilə bitirən 30 tələbə isə bölgələrdə keçiriləcək yay düşərgəsində iştirak etmək hüququ qazanacaq.

# BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə Məzun Günü

**İyulun 2-də Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kollecdə Məzun Günü tədbiri keçirilib.**

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, ardınca Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirin aparıcıları Azərbaycan, rus və ingilis dillərində Kollecin tarixi barədə məlumat veriblər.





BDU-nun prorektoru Əliş Ağamirzəyev məzunları təbrik edib, onlara uğurlar arzulayıb. O, Kollecdə görülən işləri, Universitet ilə sıx əməkdaşlığı yüksək qiymətləndirib, məzunların gələcəkdə bacarıqlı mütəxəssis kimi ölkəmizin tərəqqisində, cəmiyyətin inkişafında mühüm rol oynayacaqlarına əmin olduğunu bildirib.

Kollecin direktoru Səhər Orucova əlamətdar gün münasibətilə məzunları, onların valideynlərini təbrik edib, ölkəmizdə elmə, təhsilə verilən dəyərdən danışıb: "Ulu öndər Heydər Əliyevin Azərbaycan elminin inkişafındakı xidmətləri misilsizdir. Ümummilli liderin layiqli davamçısı olan Prezident İlham Əliyev də elm, təhsil sahəsinə hər zaman diqqət və qayğı göstərir. Azərbaycanın I Vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva da daim təhsilin inkişafına böyük töhfələr verməkdədir". Kollecin direktoru daha sonra 2021-2022-ci tədris ilində aparılan islahatlardan, nailiyyətlərdən danışıb.

Kollecin şöbə müdiri İradə Xudiyeva çıxışında məzunlara bəslənən ümidləri öz əməlləri ilə doğrultmaqlarını məsləhət görüb, onlara uğurlar diləyib.

Tədbirdə məzunların hazırladıqları videoçarxlar nümayiş etdirilib. Kollecin ictimai-mədəni, kütləvi tədbirlərində, eləcə də təhsildə fərqlənən bir qrup məzuna təşəkkürnamələr verilib.

# "Şuşa ili" çərçivəsində stolüstü tennis üzrə açıq turnir



***İyulun 15-də Bakı Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatı və Nərimanov rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Şuşa ili" çərçivəsində ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri arasında stolüstü tennis üzrə açıq turnir keçirilib.***

Turnirin açılış mərasimində Nərimanov Rayon Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov, BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Tələbə Gənclər Təşkilatının sədri Ələkbər Həsənov, turnirin hakimi, 258 nömrəli tam orta məktəbin baş bədən tərbiyəsi müəllimi Əli Kərimov, bir sıra ali təhsil müəssisələrinin (Bakı Dövlət Universiteti, Bakı Avrasiya Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Tibb Universiteti, Dövlət Gömrük Komitəsinin Akademiyası, Azərbaycan Universiteti, Azərbaycan Kooperasiya Universiteti) tələbələri iştirak ediblər.

Turnirin nəticələrinə əsasən, qızlar arasında I yeri Azərbaycan Dillər Universitetinin tələbəsi Ruhiyə Rəhimova, II yeri BDU-nun tələbəsi Sevinc Həsənova, III yeri Bakı Avrasiya Universitetinin tələbəsi Aynurə Abdullazadə, oğlanlar arasında isə I yeri Bakı Avrasiya Universitetinin tələbəsi Ejire Folakunmi Oluwaseun, II yeri Dövlət Gömrük Komitəsinin Akademiyasının tələbəsi Yunis İmanlı və III yeri BDU-nun tələbəsi Abbas Quluzadə tutub.

Sonda qaliblər təşkilatçılar tərəfindən müvafiq dərəcəli diplom, medal və kubok, digər iştirakçılar isə sertifikatlarla təltif olunublar.

# BDU könüllüləri ilə görüş



***İyulun 5-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Universitetin ictimai həyatında fəal iştirak edən könüllülərlə görüşüb.***

Rektor ölkəmizdə son illər könüllülük hərəkatının geniş vüsət aldığını, BDU könüllülərinin bu prosesdə fəal iştirak etdiklərini vurğulayıb.

Elçin Babayev BDU könüllülərinin öyrənməyə çox meylli olduqlarını qeyd edib, Universitetdə gənclərin yaradıcı və innovativ potensiallarından daha səmərəli istifadə etmək, praktik biliklərini artırmaq və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək məqsədilə həyata keçirilən tədbirlərdən danışıb.

Rektor BDU-nun struktur bölmələrində və fakültələrində çalışan könüllü tələbələrin fəaliyyətini yüksək qiymətləndirib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, gəncləri yeni təşəbbüslər irəli sürməyə çağırıb. Görüşün sonunda xüsusi fəallığı ilə seçilən tələbə könüllülərə təşəkkürnamələr təqdim olunub. Qeyd edək ki, "BDU könüllüləri" qrupu 2020-ci ildə yaradılıb. Hazırda qrupun 732 üzvü var.

# BDU-nun Qazax filialında yaz imtahan sessiyası başa çatıb

***Bakı Dövlət Universitetinin Qazax filialında 2021/2022-ci tədris ilinin yaz semestrinin imtahan sessiyası başa çatıb.***

Sessiya ərzində 17 ixtisas üzrə 54 qrupda imtahanlar keçirilib. Bakalavriat səviyyəsində əyani və qiyabi şöbələr üzrə 1245, magistratura pilləsi üzrə isə 11 nəfər tələbə imtahanlarda iştirak edib. Sessiya zamanı əyani şöbə üzrə gün ərzində 2 növbədə olmaqla ümumilikdə 314 imtahan keçirilib. İmtahan nəticələri tələbələrə həmin gün elan olunub.

Filialda imtahanların şəffaf və obyektiv keçirilməsi üçün bütün şərait yaradılıb. İmtahan sessiyasında tələbələrin müraciətlərinin qəbulu və araşdırılması, tələbələrin biliyinin qiymətləndirilməsində obyektivliyin təmin olunması məqsədilə İmtahan Qərargahı və "Qaynar xətt" fəaliyyət göstərib.

Filialın direktoru Arif Rüstəmov imtahanların gedişinə nəzarət etmək üçün mütəmadi olaraq imtahan keçirilən auditoriyalarda olub, tələbələri maraqlandıran sualları cavablandırıb.

# BDU Elmi Şurasının növbəti iclası

***İyulun 8-də Bakı Dövlət Universitetinin Elmi Şurasının növbəti iclası keçirilib.*** Rektor Elçin Babayev gündəlikdə olan məsələləri iclas iştirakçılarının diqqətinə çatdırıb. Tədris və təlim texnologiyaları üzrə prorektor Fərda İmanov iclasda 2021/2022-ci tədris ilinin yaz semestrinin imtahan sessiyası və Yekun Dövlət Attestasiyasının nəticələri barədə təqdimatla çıxış edib. İmtahan sessiyasının nəticələrinə əsasən, müvəffəqiyyət göstəricisi 74, keyfiyyət göstəricisi isə 35 faiz olub. Yaz imtahan sessiyasının nəticələri Elmi Şura üzvləri tərəfindən məqbul hesab edilib.

Daha sonra BDU-nun İnformasiya Texnologiyaları Mərkəzinin direktoru Rəfail Rüstəmovun hesabatı dinlənilib.

İclas cari məsələlərin müzakirəsi ilə davam edib.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Allahverdi Məmmədli, Xatirə Hüseynova, Samir Mirzəyev

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 29.07 .2022

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08